2 fevral 2022 №9 (1882)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı sərəncam imzalayıb

Prezident İlham Əliyev yanvarın 28-də Xocalı soyqırımının otuzuncu ildönümü ilə bağlı sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.

Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirildi, 487 dinc sakin ağır yaralandı, 1275 nəfər isə girov götürüldü.

Diqqətə çatdırılır ki, Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Qeyd olunur ki, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.

davamı səh. 2-də

## Gənclər üçün Prezident mükafatlarının yeni laureatları

Prezident İlham Əliyev fevralın 1-də "2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 nəfərə 2022-ci il Gənclər üçün Prezident mükafatları verilib.

səh. 2

## Qahirə sərgisində Azərbaycanla bağlı kitabların təqdimatı

Xəbər verdiyimiz kimi, 26 yanvar – 7 fevral tarixində Misir Ərəb Respublikasının Qahirə şəhərində keçirilən 53-cü Beynəlxalq Kitab Sərgisində ölkəmiz də təmsil olunur.

Sərgidəki Azərbaycan stendində misirli tədqiqatçı Əhməd Tərabikin ölkəmizin 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Dəmir yumruq... 2020-ci ilin Qarabağ müharibəsi" və misirli ədəbiyyatşünas Əhməd Sami əl-Aydinin ərəb dilinə tərcümə etdiyi məşhur şərqşünas alim Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitablarının təqdimatı olub.

səh. 3

## "Şuşa mədəniyyətinin inciləri"

Mədəniyyət Nazirliyi "Şuşa mədəniyyətinin inciləri" layihəsini həyata keçirir.

Layihənin "Şuşanın simaları" bölməsi üzrə ilk təqdimat bu il 190 illiyi qeyd edilən tanınmış şairə, ictimai xadim, xeyriyyəçi Xurşidbanu Natəvana həsr olunub.

səh. 3



## Əsrarəngiz "Bir Xəzər əfsanəsi"

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı 2022-ci ildə özünün ilk premyerasını gerçəkləşdirdi. Özü də çağdaş milli bəstəkarlıq məktəbi nümayəndələrindən birinin tarixi qəhrəmanlıq motivləri əsasında ərsəyə gətirdiyi nümunə ilə.

Teatrın balet truppası Lalə Cəfərovanın "Bir Xəzər əfsanəsi" adlı tamaşa ilə sənətsevərlərə xoş ovqat bəxş etdi.

səh. 5

# Mədəniyyətə töhfə verəcək təşəbbüslər dəstəklənməlidir

### Prezident Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışını edib: "Mən onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam..."

Ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, mədəni həyata töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir.

Prezident İlham Əliyev bu sözləri yanvarın 30-da Gəncə şəhərində AZƏRTAC-a müsahibəsində deyib.

Prezident bir neçə il əvvəl Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak etdiyini xatırladaraq, Gəncə Dövlət Dram Teatrının yeni binasının da şəhərin mədəni həyatına mühüm töhfə olduğunu vurğulayıb.

Xəbər verildiyi kimi, Prezident yanvarın 30-da Gəncə şəhərinə səfəri zamanı Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak edib.

Gəncə Dövlət Dram Teatrı 1921-ci ildə Bakıda yaradılıb. 1925-ci ilədək "Tənqid-təbliğ" teatrı, 1932-ci ilədək "Bakı-işçi-kəndli" teatrı adlandırılıb. 1932-ci ilin dekabr ayında teatr bütün heyəti ilə birlikdə Gəncəyə köçürülüb və fəaliyyətini burada davam etdirib. Görkəmli teatr xadimləri İsmayıl Talıblı, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Ağahüseyn Cavadov, Mehdi Məmmədov, Kazım Ziya, Fatma Qədri, Əmir Dadaşlı, Rəmziyyə Veysəlova kimi şəxsiyyətlərin sənət yolu məhz buradan keçib.

Dövlət başçısına Gəncə Dövlət Dram Teatrının yeni binasında görülən işlərlə bağlı məlumat verilib.

Qeyd edilib ki, 2014-cü ildə təməli qoyulan binada 478 yerlik böyük tamaşa zalı və 120 yerlik kiçik tamaşa zalı var. Yeddi-



mərtəbəli binada, həmçinin iki zaldan ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıb.

***

Prezident həmçinin 2 saylı Gəncə regional "ASAN Xidmət" mərkəzinin açılışını edib, Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanış olub və Gəncə Memorial Kompleksinin təməlini qoyub. Dövlət başçısı kompleksin yaradılacağı ərazi ilə tanış olub.

2020-ci ilin Vətən müharibəsi dövründə Gəncə şəhəri 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoyub.

davamı səh. 2-də

## Gənclərin bayramına rəngarəng "AXIN"

### "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində sərgi

2 fevral Azərbaycanda Gənclər Günüdür. 1996-cı il fevralın 2-də Bakı şəhərində Azərbaycan gənclərinin birinci forumu keçirilib. Prezident Heydər Əliyev həmin əlamətdar hadisəni və dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu nəzərə alaraq bu tarixin Gənclər Günü elan edilməsi barədə sərəncam (1 fevral 1997-ci il) imzalayıb.

Fevralın 1-də Heydər Əliyev Sarayında "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində Gənclər Gününə həsr olunmuş "AXIN" adlı sərginin açılışı keçirildi. Sərgi Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Heydər Əliyev



Sarayının birgə təşkilatçılığı ilə reallaşır.

Heydər Əliyev Sarayının direktoru, Əməkdar artist Ramil Qasımov çıxış edərək qonaqları salamladı. Bildirdi ki, dövlətimizin prioritet istiqamətlərindən biri də gənclər siyasətidir: "Müasir Azərbaycan gənci müstəqil düşüncəli gəncdir. Dövlətimizin yaradıcı gənclərə diqqəti, onların xaricdə təhsili, eyni zamanda Birinci vitse-prezident Mehriban Əliyevanın gənclərin inkişafı ilə bağlı layihələrə verdiyi dəstək bu gün gəncliyimizə açılan qapılardır".

davamı səh. 2-də

## Moskvada Azərbaycan kinosunun retrospektivi

### Doqquz gün ərzində 19 film göstəriləcək

2022-ci ilin 7-15 fevral tarixində Moskvadakı "İllüzion" ("Иллюзион") kinoteatrı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birgə tamaşaçılara Azərbaycan kinosunun geniş retrospektivini təqdim edəcək.

Proqramda Azərbaycan kinosunun ötən əsrin 30-cu illərinə aid səssiz filmlərindən başlayaraq müxtəlif dövrlərdə, eləcə də sovet dövrünün son illərində çəkilmiş filmlər, həmçinin müasir rejissorların beynəlxalq kinofestivallarda uğur qazanmış ekran əsərləri nümayiş olunacaq.

Ümumilikdə 19 ekran əsərindən ibarət proqrama komediya və triller, nağıl və detektiv hekayələr, sevgi hekayələri, sosial dramlar və sürrealist pritçalar daxildir. Nümayişlər kino tənqidçilərinin mühazirələri və rejissorlarla görüşlərlə müşayiət olunacaq.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri, rejissor, proqramın Azərbaycan tərəfdən kuratoru Rüfət Həsənov layihə haqqında məlumat verərək bildirib ki, Azərbaycanla Rusiya mədəniyyət, xüsusilə kinematoqrafiya sahəsində səmərəli əməkdaşlıq edir. O xatırladıb ki, 2021-ci ilin sonlarında (8 noyabr – 5 dekabr) Azərbaycanın və Rusiyanın Mədəniyyət nazirlikləri və "Roskino"nun dəstəyi ilə "KinoPoisk" platforması üzərindən Azərbaycan tamaşaçıları üçün ilk dəfə onlayn formatda "Rusiya Film Festivalı" keçirilib: "İndi isə Moskvanın "İllüzion" kinoteatrında Azərbaycan kinosunun genişmiqyaslı retrospektivinə start verilir. Biz əminik ki, bu tədbir çoxsaylı kinosevərlərdə böyük maraq doğuracaq...".

"Biz Azərbaycan kinosunun yəqin ki, Moskvadakı ilk irimiqyaslı proqramını təqdim etməkdən məmnunuq. Azərbaycan Respublikası Mədəniyyət




Nazirliyi ilə əməkdaşlıq sayəsində təkcə bizim Dövlət Film Fondunda saxlanılan sovet dövrünün filmlərini deyil, həm də yenidənqurma dövrünün kinosunu və müasir Azərbaycan "yeni dalğa"sının ən yaxşı nümunələrini nümayiş etdirəcəyik" – bu sözləri isə proqramın Rusiya tərəfdən kuratoru, "İllüzion" kinoteatrının bədii rəhbəri Aleksandra Lavrova deyib. O bildirib ki, ekran əsərlərinin çox hissəsi 35 mm-lik kinolentdən nümayiş etdiriləcək: "Filmlərin rəqəmsal nüsxələri Azərbaycan Dövlət Film Fondu tərəfindən bizə təqdim olunub. Bu filmləri indi böyük ekranda görmək, demək olar ki, qeyri-mümkündür. Ona görə də hər yaşdan olan kinosevərləri əsl ziyafət gözləyir...".

Retrospektiv 2021-ci ildə Rotterdam Film Festivalında premyerası olmuş "Sonuncu" filminin (rejissor Fariz Əhmədov) nümayişi ilə açılacaq. Proqram "Dəcəl dəstə" (1937, rejissorlar Qəmər Salamzadə, Aleksandr Popov), "Mavi dənizin sahilində" (1936, rejissor Boris Barnet), "Sehrli xalat" (1964, Əlisəttar Atakişiyev), "Uzaq sahillərdə" (1958, Tofiq Tağızadə), "Özgə vaxt" (1996, Hüseyn Mehdiyev), "Hər şey yaxşılığa doğru" (1997, Vaqif Mustafayev), "Yarasa" (1995, Ayaz Salayev) filmləri ilə davam edəcək.

davamı səh. 2-də

"Böyük qırmızı ev"in çəkilişləri başa çatıb



səh. 5

Tağıyevin təvəllüd tarixindəki qeyri-müəyyənlik nə ilə bağlıdır?

Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru Fərhad Cabbarovla müsahibə

səh. 4



Xalça Muzeyində qobelen dünyası

səh. 7

№9 (1882)
2 fevral 2022
www.medeniyyet.az

# Prezident Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı sərəncam imzalayıb

*əvvəli səh. 1-də*

Sərəncamda vurğulanır ki, Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurası qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı.

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq Qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Bildirilir ki, haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət “Xocalıya ədalət!” beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.

Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq.

Sərəncamda Xocalı soyqırımı zamanı qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsi faciənin otuzuncu ildönümü ərəfəsində bir daha dərin hüznlə yad edilir.

Sənəddə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirilməsini təmin etmək tapşırılıb.

# Zərifə Salahova “Şərəf” ordeni ilə təltif edilib

Prezident İlham Əliyev fevralın 1-də Zərifə Teymur qızı Salahovanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Zərifə Salahova Azərbaycan Respublikasının ictimai və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.

Fevralın 2-də Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın 90 yaşı tamam olur. Qocaman mədəniyyət xadimi Azərbaycandan çox uzaqlarda da tanınan Miniatür Kitab Muzeyinin yaradıcısıdır.

Zərifə xanımı yubileyi və yüksək dövlət təltifi münasibətilə təbrik edirik.

# Gənclər üçün Prezident mükafatlarının yeni laureatları

Prezident İlham Əliyev fevralın 1-də ”2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında” sərəncam imzalayıb. Sərəncam Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifi nəzər alınaraq imzalanıb.

Sərəncama əsasən, elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2022-ci il Gənclər üçün Prezident mükafatları verilib: Axundova Lalə Əhməd qızı; Bayramova Emiliya Polad qızı; Əliyev Azər Ruslan oğlu; Gülaliyeva Səyyarə Müşfiq qızı; Hidayətov Coşqun Hikmət oğlu; Hüseynov Orxan İsa oğlu; Xəlilli Əliqənbər Yadigar oğlu; Qasımov Əziz Kamal oğlu; Quliyev Azər Alik oğlu; Muradov Suad Rəşad oğlu.

# Ölkəmizin ATƏT-ə üzvlüyünün 30 illiyi

## Baş katibdən təbrik paylaşımı

ATƏT-in baş katibi Helqa Şmid təşkilata üzvlüyünün 30 illiyi münasibətilə Azərbaycanı təbrik edib.




Helqa Şmid özünün “Twitter” hesabında bununla bağlı paylaşım edib.

30 il əvvəl Azərbaycanla yanaşı təşkilata üzv olan digər 13 ölkəni də təbrik edən baş katib ATƏT-in bu ölkələrin tarixinin bir hissəsi olması ilə fəxr etdiyini vurğulayıb.

Xatırladaq ki, 30 yanvar 1992-ci ildə Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (o vaxt ATƏT belə adlanırdı) Xarici İşlər Nazirləri Şurasının toplantısında Azərbaycan Respublikası bu beynəlxalq quruma üzv qəbul olunub.

# Moskvada Azərbaycan kinosunun retrospektivi

*əvvəli səh. 1-də*




Bundan əlavə, “Bir cənub şəhərində” (1969, Eldar Quliyev), “Şərikli çörək” (1969, Şamil Mahmudbəyov), “Bizim Cəbiş müəllim” (1969, Həsən Seyidbəyli), “İstintaq” (1979, Rasim Ocaqov), “Şeytan göz qabağında” (1987, Oktay Mir-Qasım), “Qətldən yeddi gün sonra” (1991, Rasim Ocaqov), “Balıqçının qızı” (2019, İsmayıl Səfərəli), “Səpələnmiş ölümlər arasında” (2020, Hilal Baydarov), “Duz, istiot zövqə görə” (2019, Teymur Hacıyev), “Axşama doğru” (2020, Teymur Hacıyev) və “Daxildəki ada” (2020, Rüfət Həsənov) filmləri nümayiş olunacaq.

Qeyd edək ki, hazırda Moskvada Azərbaycan kinosu ilə bağlı daha bir layihə davam edir. 22 yanvar – 20 fevral tarixləri arasında şənbə və bazar günləri Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin “Azərbaycan” pavilyonunda ötən əsrin 60-80-ci illərinin filmləri nümayiş olunur.

# Mədəniyyətə töhfə verəcək təşəbbüslər dəstəklənməlidir

*əvvəli səh. 1-də*

Münaqişə bölgəsindən kilometrlərlə kənar ərazilərin qadağan olunmuş kaset bombalarla hədəfə alınması nə beynəlxalq hüquqa, o cümlədən Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına uyğun deyildi. Bu ifadənin dəqiq definisiyası “alçaqcasına hücum”dur. Azərbaycan Ordusu isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmır, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirir, qisasımızı döyüş meydanında alırdı.

Ermənistanın raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsi isə bu ərazini ziyarətə gələn hər kəs tərəfindən ehtiramla anılır.

Gəncə Memorial Kompleksinin təməlinin qoyulmasından sonra Prezident İlham Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinə – AZƏRTAC-a müsahibə verib.

Prezident olduğu 18 il ərzində Gəncəyə ümumilikdə 18-ci səfərini etdiyini diqqətə çatdıran İlham Əliyev şəhərin infrastruktur layihələrinin böyük əksəriyyətinin öz həllini tapdığını bildirib. “Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib” deyən dövlət başçısı əlavə edib ki, Gəncənin mədəni həyatı da çox zəngindir: “Həm Dövlət Filarmoniyasının yeni binası tikilib, həm də Dram Teatrının. Yəni, Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir”.




**Gəncə Memorial Kompleksinin təməli qoyulub**

“İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük – uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır”, – deyə Prezident İlham Əliyev vurğulayıb.

Şəhərdə açılışı edilən obyektlərdən bəhs edən dövlət başçısı bildirib ki, bu açılışlar Gəncənin inkişafı və şəhərin problemlərinin həllinin daim diqqət mərkəzində olduğunu göstərir: “Həm də onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara – Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur...”.



Gəncə Dram Teatrının yeni binası barədə danışan Prezident İlham Əliyev xatırladıb ki, bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə teatr üçün yeni binanın tikilməsi ilə bağlı mənə müraciət etmişdilər: “Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Necə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu Filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb.

Bu gün, eyni zamanda, Gəncə İdman Sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, – ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur... Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq...”.

Gəncədə lokomotiv deposunun yaradılmasının da başa çatdığını deyən İlham Əliyev qeyd edib ki, buna da çox böyük ehtiyac var. Çünki Gəncədən Şərq-Qərb nəqliyyat dəhlizi keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılıb, ikinci depo isə Gəncədə açıldı: “Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf getməlidir, davam etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq...”.

Prezident Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Gəncəyə raket hücumları nəticəsində dağıdılmış ərazidə yaradılacaq xatirə kompleksi barədə də danışıb: “Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq, əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi... Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm “Toçka-U”, həm “SCUD” raketləri ilə atəşə tuturdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər – Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq... Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın...”.

# Gənclərin bayramına rəngarəng “AXIN”

*əvvəli səh. 1-də*

Direktor daha sonra bildirdi ki, bu il fəaliyyətə başlamasının 50 illiyini qeyd edən Heydər Əliyev Sarayı mütəmadi olaraq gənclərə həsr olunan layihələr həyata keçirir. Bu sərgi də onlardan biridir: “Bizi birləşdirən mədəniyyət” layihəsi çərçivəsində bir sıra işlər həyata keçirdik. Gənclərin saf düşüncəsi və sənətə məsuliyyətlə yanaşmaları bizi sevindirir. Bir daha gənclərimizi əlamətdar bayram münasibətilə təbrik edir, uğur arzulayıram”.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov bildirdi ki, gəncliyimizin ictimai-siyasi həyatda baş verənlərə, bu günə, keçmişə baxışı və bunları sənətdə təzahür formaları çoxbucaqlıdır: “Əsərlərin ideya-



bədii mahiyyəti diqqəti cəlb edir. Bugünkü sərgiyə əsərlər xüsusi seçimlə qəbul olunub. Hesab edirəm ki, “AXIN” qrupu üzvləri gələcəkdə daha maraqlı əsərlər ərsəyə gətirəcəklər. Rəssamlara uğurlar arzulayır, sərginin təşkilinə dəstək olan Mədəniyyət Nazirliyi və Heydər Əliyev Sarayına minnətdarlığımı bildirirəm”.

Sənətşünas, professor Ziyadxan Əliyev sərginin əhəmiyyətini yüksək qiymətləndirdi. O, gənc rəssamların mövzu dairəsinin genişlənməsinin vacibliyini vurğuladı. “Hər bir rəssam öz dövrünün aynası olmalıdır. Bu gün şahidi olduğunuz böyük Qələbəmizi çəkin və gələcəyə ötürün”, – deyə sənətşünas bildirdi.

Qeyd edək ki, “AXIN” sərgisi gənclərin cəmiyyətdəki fəallığının təmin edilməsi, istedad və bacarıqlarının üzə çıxarılması, mədəni tədbir və layihələrdə iştiraklarının dəstəklənməsi, bədii-estetik zövqünün formalaşdırılması məqsədilə keçirilir.

Sərginin ekspozisiyasında 40-a yaxın gənc rəssamın əsərləri sərgilənir.

**Lalə Azəri**

# Mədəniyyət Nazirliyində BMT-nin ölkəmizdəki nümayəndəsi ilə görüş

Mədəniyyət naziri Anar Kərimov yanvarın 27-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi xanım Vladanka Andreeva ilə görüşüb.

Qonağı salamlayan Anar Kərimov artıq 30 illiyi qeyd edilən Azərbaycan-BMT münasibətlərindən söz açıb, ölkəmizin təşkilatın bir sıra institutları ilə fəal və səmərəli əməkdaşlığını vurğulayıb.

Birgə əməkdaşlığın dərinləşdirilməsi və inkişaf etdirilməsi, qarşılıqlı dəstəyin əhəmiyyətini diqqətə çatdıran nazir müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən və BMT tərəfindən dəstəklənən "Bakı Prosesi" təşəbbüsünü xatırladıb, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbir və layihələrin gerçəkləşdirildiyini diqqətə çatdırıb.



Görüşdə həmçinin nazir dövlətimizin BMT-nin Sivilizasiyalar Alyansı və İCESCO ilə birgə elan etdiyi "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal çağırışı barədə məlumat verib. Bildirilib ki, bu kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Eyni zamanda bu layihə "Bakı Prosesi" təşəbbüsü və 2010-cu ildə BMT Baş Assambleyası çərçivəsində irəli sürülmüş Dünya Mədəniyyətlərarası Dialoq Forumu ideyasının qlobal miqyasda davamını və ölkəmizin onun əsas ideyalarına sadiqliyini nümayiş etdirir.

BMT-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Vladanka Andreeva qəbula görə nazirə təşəkkürünü bildirib. O, BMT-nin Azərbaycanla uzun illərə söykənən ikitərəfli əlaqələrinə istinad edərək birgə əməkdaşlığın növbəti illərdə də uğurla davam etdiriləcəyinə inandığını və bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüş mədəniyyət sahəsində əməkdaşlıq məsələlərinin müzakirəsi, gələcək əməkdaşlıq imkanları, yeni proqram və layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi ilə davam edib.

# Qahirə sərgisində Azərbaycanla bağlı kitabların təqdimatı





Xəbər verdiyimiz kimi, 26 yanvar – 7 fevral tarixində Misir Ərəb Respublikasının Qahirə şəhərində keçirilən 53-cü Beynəlxalq Kitab Sərgisində ölkəmiz də təmsil olunur. Sərgiyə ümumilikdə 51 ölkə qatılıb.

53-cü Qahirə Beynəlxalq Kitab Sərgisindəki Azərbaycan stendində misirli tədqiqatçı Əhməd Tərabikin ölkəmizin 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Dəmir yumruq... 2020-ci ilin Qarabağ müharibəsi" və misirli ədəbiyyatşünas Əhməd Sami əl-Aydinin ərəb dilinə tərcümə etdiyi məşhur şərqşünas alim Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitablarının təqdimatı olub.

Tədbirdə Azərbaycanın Misir Ərəb Respublikasındakı Səfirliyinin müvəqqəti işlər vəkili Ramiz Vəliyev, səfirliyin əməkdaşları, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Seymur Nəsirov, sərginin ziyarətçiləri, diaspor nümayəndələrimiz iştirak ediblər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli təqdimatı açaraq qeyd edib ki, sərgidə ölkəmiz, tarix və mədəniyyətimiz, ədəbi irsimizlə bağlı kitablar, o cümlədən nazirliyin dəstəyi ilə işıq üzü görmüş nəşrlər nümayiş etdirilir.

Şöbə müdiri rusiyalı şərqşünas Yevgeni Bertelsin ötən əsrin 40-cı illərində nəşr olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabının əhəmiyyətindən danışıb, bu dəyərli tədqiqat əsərinin Azərbaycan və ingilis dillərinə də tərcümə olunduğunu diqqətə çatdırıb. Bildirib ki, kitabın ərəb dilində də nəşr olunması dahi şair Nizami Gəncəvi irsinin ərəb ölkələrində daha dərindən tanıdılmasına mühüm töhfə olacaq.

"Dəmir yumruq... 2020-ci ilin Qarabağ müharibəsi" kitabı barədə də danışan şöbə müdiri 2020-ci ildə xalqımızın Vətən müharibəsində qazandığı Qələbədən, otuz ilə yaxın işğal altında qalmış torpaqlarımızın azad edilməsindən söz açıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun dəstəyi ilə işıq üzü görmüş "Dəmir yumruq... 2020-ci ilin Qarabağ müharibəsi" kitabının müəllifi Əhməd Tərabik nəşr haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəsi və ərazi bütövlüyünü bərpa etməsi bütün dünyada, o cümlədən ərəb ölkələrində mühüm bir hadisə kimi qiymətləndirilib. Kitabda müharibənin xronologiyası, həmçinin Prezident, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri və beynəlxalq media orqanlarına müsahibələrindən əsas məqamlar yer alıb. Kitabda erməni işğalçılarının Azərbaycan torpaqlarında törətdiyi vandalizm əməllərindən də bəhs edilir.

Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan dilində nəşr edilən "Böyük Azərbaycan şairi Nizami" kitabının ərəb dilinə tərcüməçisi, Misirin Ayn-Şəms Universitetinin professoru Əhməd Sami əl-Aydi dahi mütəfəkkirin həyatı və zəngin ədəbi irsi barədə danışıb. O, bu qiymətli əsərin ərəbdilli elm xadimləri və tələbələrə təqdim edilməsini mühüm hadisə adlandırıb.

Tədbirin sonunda kitabların müəllifləri iştirakçıların suallarını cavablandırıblar.

***

53-cü Qahirə Beynəlxalq Kitab Sərgisində iştirak edən Azərbaycan Mədəniyyət Nazirliyinin heyəti və ölkəmizin Misirdəki səfirliyinin nümayəndələri məşhur İsgəndəriyyə Kitabxanasında olublar.

Heyət kitabxananın foyesində dahi Azərbaycan şairi Nizami Gəncəvinin büstünün önünə gül dəstələri qoyublar. Qonaqlara İsgəndəriyyə Kitabxanası haqqında ətraflı məlumat verilib.

# Gənclərin bayramı münasibətilə

Fevralın 1-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin M.Ə.Sabir adına Mədəniyyət evi Sabunçu rayon Gənclər və İdman İdarəsi ilə birgə Gənclər Gününə həsr olunmuş tədbir təşkil edib.



Baş idarədən bildirilib ki, "Gənclərlə irəli" adlı tədbirdə M.Ə.Sabir adına Mədəniyyət evi Xalq teatrının üzvləri "Ulduz" filmindən səhnəcik göstəriblər. Mədəniyyət evində fəaliyyət göstərən "Dərya" rəqs ansamblının çıxışı da tədbirə rəng qatıb.

Gənc rəssamların əl işləri nümayiş olunub, tar və kamançanın müşayiəti ilə Şəbnur Allahverdilinin ifasında "Dağlarda duman gözəldir" xalq mahnısı səsləndirilib.

Rayonun icra başçısının müavini Rəna Fərəcova və Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyev çıxış edərək tədbir iştirakçılarını Gənclər Gününün 25 illiyi münasibətilə təbrik ediblər.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin İbrahim Əbilov adına Mədəniyyət Mərkəzi əlamətdar gün münasibətilə "Gənclər sabahımızdır" adlı tədbir keçirib. Mədəniyyət Mərkəzinin bədii rəhbəri Məhərrəm Nəcəfzadə tədbirə qatılan gəncləri təbrik edib.



Mərkəzin "Oğuzlar", "Ailə" folklor ansamblları üzvlərinin və "Şəlalə" xalq çalğı alətləri ansamblı solistlərinin ifasında muğam və bəstəkar musiqiləri səsləndirilib.

***

2 fevral – Gənclər Günü münasibətilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 28 nömrəli Uşaq musiqi məktəbində də konsert proqramı təqdim edilib.

Baş idarədən bildirilib ki, konsertdə məktəbin skripka ixtisası üzrə təhsil alan şagirdləri iştirak ediblər. Proqramda Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ifa olunub.



# Dövlət Teatr Muzeyində Gənclər Günü



Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 2 fevral – Gənclər Günü münasibətilə "Azərbaycan gənclərinin davranış stereotiplərini istiqamətləndirən amillər" mövzusunda dəyirmi masa təşkil edilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirilməsindən bəhs edib. Bildirib ki, bu, Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramlarının həyata keçirilməsində özünü bir daha büruzə verir.

Tədbirdə Binəqədi rayonu Gənclər evinin nümayəndəsi, psixoloq Ofeliya Əliyeva, şair Fərid Hüseyn, "Hədəf" nəşriyyatının icraçı direktoru Səbuhi Şahmursoy, yazıçı Ülviyyə Heydərova, Azərbaycan Dövlət Teatr Muzeyinin əməkdaşları Suğra Niftullayeva, Günay Teymurova, Əli Abuzərov mövzu ətrafında çıxış ediblər.

# "Şuşa İli"ndə silsilə tədbirlər, layihələr planlaşdırılır

Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan olunması ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən tədbirlər planı hazırlanır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada mədəniyyətin dirçəldilməsi istiqamətində aparılan işlər çərçivəsində tarixi abidələrin, muzey və kitabxanaların, mədəniyyət müəssisələrin bərpası nəzərdə tutulur.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadənin bildirdiyinə görə, bu il ərzində Şuşada yerli və beynəlxalq tədbirlərin, konsert və festivalların, mediaturların təşkili, yeni filmlərin çəkilişi planlaşdırılır. Şuşanın mədəni adət-ənənələrinin dirçəldilməsi istiqamətində Xarıbülbül Musiqi Festivalı, Vaqif Poeziya Günləri, Üzeyir Hacıbəyli Musiqi Festivalı kimi ənənəvi mədəni tədbirlərlə yanaşı, bu il xan qızı Xurşidbanu Natəvanın 190 illiyi ilə bağlı Şuşada ədəbiyyat festivalının keçirilməsi də nəzərdə tutulur .

"Mədəniyyət Nazirliyi tərəfindən qədim şəhərimizin zəngin mədəni irsini tanıtmaq məqsədilə "Şuşa mədəniyyətinin inciləri" adlı layihəyə də start verilib. Layihə yeddi istiqamətdən ibarətdir: "Şuşanın memarlıq salnaməsi", "Azərbaycan musiqisinin məbədi – Şuşa", "Muğam ocağı – Şuşa", "Qarabağ xalçaçılıq məktəbi – Şuşa", "Şuşanın ədəbi həyatı", "Şuşanın simaları", "Şuşa milli geyim üslubu". Layihənin əsas məqsədi qədim tarixə malik olan Şuşa şəhərinin zəngin mədəniyyətinin daha geniş təbliğatını həyata keçirməkdir", – deyə Məryəm Qafarzadə bildirib.

# "Şuşa mədəniyyətinin inciləri"

## Layihənin "Şuşanın simaları" bölməsi üzrə ilk material Natəvana həsr olunub

Mədəniyyət Nazirliyi "Şuşa mədəniyyətinin inciləri" layihəsini həyata keçirir. Layihə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi münasibətilə reallaşdırılır.






Layihənin "Şuşanın simaları" bölməsi üzrə ilk təqdimat bu il 190 illiyi qeyd edilən tanınmış şairə, ictimai xadim, xeyriyyəçi Xurşidbanu Natəvana həsr olunub.

Xurşidbanu Natəvan 1832-ci ildə Azərbaycanın dilbər guşəsi, qədim mədəniyyət mərkəzi Şuşada dünyaya göz açıb. Xuşidbanu ilk təhsilini dövrünün alim və sənətkarlarından alıb. Doğma dili ilə yanaşı, ərəb və fars dillərini də mükəmməl öyrənib, klassik poeziyanın incəliklərinə dərindən yiyələnib.

Bədii yaradıcılığı XIX əsrin təxminən 50-ci illərindən başlayan Xan qızı əvvəl "Xurşid", sonra isə "Natəvan" təxəllüsü ilə aşiqanə şeirlər qələmə alıb. Müəllifin Şuşanın əsrarəngiz təbiətindən ilhamlanaraq yazdığı bədii nümunələr hələ sağlığında dillər əzbəri olub. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərib.

Yaradıcılıqla yanaşı, xeyriyyəçiliyi ilə də seçilən Natəvan bütün xərcləri öz üzərinə götürərək 1864-cü ildən Şuşanın bir qrup şairindən ibarət "Məclisi-üns" ədəbi məclisinə rəhbərlik edib. O, həmçinin 1873-cü ildə Şuşaya içməli su kəməri çəkdirib. Şuşadakı Xan qızı bulağı tanınmış şairənin xeyir əməllərinin sübutlarından biridir.

Xurşidbanu Natəvan 1897-ci il oktyabrın 1-də vəfat edib və Ağdamın "İmarət" qəbiristanlığında dəfn olunub.

44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz bərpa ediləndən sonra Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən xaricə satılarkən Azərbaycan dövlətinin ölkəmizə qaytardığı Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Bu gün Azərbaycan mədəniyyətinin paytaxtı 270 yaşlı Şuşa şəhəri dirçəlir. 28 illik işğal zamanı erməni vandalizminə məruz qalmış qədim şəhərimizdə tarixi abidələrimiz bərpa olunur, Şuşada aparılan bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Həyata keçirilən işlər çərçivəsində ötən il "Xan qızı" bulağı da bərpa edilib.

# Ermənilərin Şuşadan apardıqları xalçalarla bağlı

## Arayış XİN-ə təqdim edilib

Şuşanın azad edilməsindən bir həftə öncə, 2020-ci il noyabrın 1-də erməni işğalçıları tərəfindən şəhərdən çıxarılan xalçalarla bağlı Mədəniyyət Nazirliyi müfəssəl arayış hazırlayaraq Xarici İşlər Nazirliyinə təqdim edib.

Xatırladaq ki, 2021-ci il fevralın 20-də İrəvandakı A.Tamanyan adına Milli Memarlıq Muzey-İnstitutunda həmin xalçalardan ibarət sərgi təşkil olunub. Xalçaların 2011-ci ildən etibarən Şuşada fəaliyyət göstərmiş muzeydə sərgiləndiyi və erməni əsilli kolleksiyaçıya aid olduğu iddia edilib. Azərbaycan Milli Xalça Muzeyində fəaliyyət göstərən Mədəniyyət Nazirliyinin Ekspert Komissiyası tərəfindən həmin sərgidə nümayiş etdirilən xalçalara dair Azərbaycan və ingilis dillərində müfəssəl arayışlar hazırlanaraq Xarici İşlər Nazirliyinə təqdim olunub.

Ermənilər 28 ildən artıq işğal altında saxladıqları Şuşa şəhərindən apardıqları xalçaları fevralın 20-də İrəvanda "Arsax" xalçaları adı altında sərgiyə çıxaracaqlar.

Qeyd edək ki, ötən ilin fevralında sözügedən sərgi ilə bağlı Azərbaycan Mədəniyyət Nazirliyi bəyanat yaymışdı.

Bəyanatda qeyd olunurdu ki, Şuşadan çıxarılaraq İrəvanda təqdim olunan xalçalar Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa məxsus milli irs nümunələrimizdir.

"Bu sərgi ermənilərin növbəti oğurluğu və qeyri-qanuni mənimsəməsidir. Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri daxilindən mədəni irs nümunələrimizin qanunsuz çıxarılması, daşınması, digər ölkə ərazisinə gətirilməsi kimi əməlləri UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin müdafiəsi haqqında" 1954-cü il Haaqa Konvensiyası və onun İkinci protokolunun 19-cu maddəsinə və "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasının 11-ci maddəsinə əsasən, beynəlxalq hüququn pozulmasıdır və bununla bağlı bütün məsuliyyət Ermənistan hökumətinin üzərinə düşür", – deyə bəyanatda vurğulanırdı.

№9 (1882)
2 fevral 2022
www.medeniyyet.az

### YUBİLEYİ UNESCO-DA QEYD EDİLƏCƏK

# Tağıyevin təvəllüd tarixindəki qeyri-müəyyənlik nə ilə bağlıdır?

Xəbər verdiyimiz kimi, 2021-ci ilin noyabrında UNESCO-nun Parisdə keçirilən 41-ci Baş Konfransı çərçivəsində Azərbaycanın iki tarixi şəxsiyyəti – mesenat Hacı Zeynalabdin Tağıyevin (1823–1924) anadan olmasının 200 illiyi və dünya şöhrətli bəstəkar Fikrət Əmirovun (1922–1984) 100 illiyi təşkilatın 2022–2023-cü illər üzrə yubileylər proqramına salınıb. Bu il yanvarın 18-də isə Bakıda Tağıyevin abidəsinin açılışı gerçəkləşib. Hər iki əlamətdar hadisə məşhur milyonçumuzun ömür yolu və xalqımız qarşısında böyük xidmətlərinə yenidən nəzər salmaq üçün yeni imkandır.

Müsahibimiz AMEA Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Cabbarovdur.



*– Fərhad müəllim, gələn il UNESCO-da məşhur milyonçumuzun 200 illiyi qeyd ediləcək. Amma Tağıyevin təvəllüd tarixi ilə bağlı müxtəlif mənbələr üzrə qeyri-müəyyənlik var. Bu barədə nə deyə bilərsiniz?*

– 1900-cü ildə görkəmli dövlət xadimi Nəriman Nərimanov Hacı Zeynalabdin Tağıyev haqqında bir kitab yazıb. Burada Tağıyevin 1838-ci ildə doğulduğu qeyd olunur. Hər halda kitab Tağıyevin sağlığında çap edilib və düşünürəm ki, səhv ola bilməzdi. Qızı Sara xanım da atasının 1838-ci ildə anadan olduğunu yazır. 1823-cü il ehtimalı haradan yaranır? 1896-cı ildə Tağıyevə Zaqafqaziya şeyxülislamı tərəfindən doğum şəhadətnaməsi verilir. Burada onun 1823-cü ildə doğulduğu qeyd olunur. Həmin şəhadətnaməni Tağıyev niyə 1896-cı ildə alıb, bu da hələ ki, müəmmalıdır. Bu günə kimi cavab tapılmayıb və bu yeganə sənəddir. Başqa heç bir sənəd 1823-cü ili təsdiq etmir. Bəzi sənədlərdə hətta 1841 və 1842-ci illər də yazılıb. Ölkə başçımızın açdığı abidə üzərində də 1838-ci il qeyd olunub. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə nəşr olunan sovet ensiklopediyasında da 1838-ci il qeyd edilib.

*– Hər halda gələn il Tağıyevin 200 illiyi də, 185 illiyi də olsa, yubileyidir. Milli Azərbaycan Tarixi Muzeyində UNESCO səviyyəsində qeyd olunacaq yubileylə bağlı nə kimi işlər görüləcək?*

– Biz hər zaman Tağıyevlə bağlı müəyyən layihələr həyata keçiririk. UNESCO ilə bağlı olub-olmasa da, biz muzey olaraq bu işlərimizi davam etdiririk. Tağıyevin qızı Sara xanımın xatirələrini və məktublarını çap etdirməyi planlaşdırırıq. Bilirik ki, sovet dövründə Sara xanım Tağıyevin adının bərpası uğrunda ardıcıl mübarizə aparıb. Bununla bağlı arxivdə çoxlu sənədlər, müraciətlər və məktublar var. Bunları kitab şəklində geniş izahlarla çap etdirəcəyik. İnsanlarımız bu kitabla Sara xanımın ağır həyat yolunu və Tağıyevin özü və fəaliyyəti ilə bağlı maraqlı məqamları oxuya biləcəklər.

*– Sosial şəbəkələrdə Tağıyevin nəvələri və nəticələri ilə bağlı mütəmadi yazılar dərc olunur. Muzeyin onlarla əlaqəsi varmı?*

– Bəli, var. Jurnalist Hafiz Əhmədov xaricdə yaşayan tanınmış nəsillərin nümayəndələrini araşdırıb tapır. Onun Tağıyevin varisləri ilə də müsahibələri var. Həm Sara xanım, həm də Leyla xanımın nəvələri ilə əlaqələrimiz var idi. Onlar muzeyin 100 illiyində Bakıda və bizim binada oldular.

## “Dövlətlə cəmiyyətin Tağıyevə münasibəti üst-üstə düşür”

*– Tağıyev irsinin araşdırıcısı kimi heykəl qoyulduqdan sonra yaranan müzakirələrə münasibətinizi bilmək istərdik.*

– Heykəl, doğrudan da, müzakirələrə səbəb oldu. Bu, müsbət haldır. Sübut edir ki, cəmiyyət hadisəyə biganə yanaşmayıb. Bu şəxsiyyətə hörmət və maraq hələ də var. Heykəlin qoyuluşu təsadüfi reaksiyaya səbəb olmayıb. Hər kəsin fərqli münasibəti ola bilər. Kimsə bəyənər, kimsə yox. Bütün hallar obyektivdir. Əsas məsələ odur ki, artıq şəhərimizdə bu böyük insanın heykəli var. Çox sevindirici haldır ki, açılışdan bir qədər sonra insanlar ora güllər aparıblar. Bədii cəhətdən, məkan baxımından nə dərəcədə uğurlu olması barədə hər kəsin öz fikri var. Mənim də bəyəndiyim və bəyənmədiyim məqamlar var. Biz burada alt səbəblər axtarmamalıyıq. Ölkə başçısı, cənab İlham Əliyevin heykəlin açılışında çıxışı və Tağıyev haqqında söylədiyi fikirlər dövlətimizin mövqeyini göstərdi.





Uzun müddət dövlətin Tağıyevə mənfi, cəmiyyətin müsbət münasibəti təəssüratı hiss olunub. Bu gün hər ikisi üst-üstə düşür.

> Fərhad Cabbarov: “Zaqafqaziya şeyxülislamı tərəfindən Tağıyevə verilən doğum haqqında şəhadətnamədə 1823-cü il qeyd edilib. Başqa heç bir mənbə bunu təsdiqləmir...”

Prezident İlham Əliyev Mərdəkanda Tağıyevin adını daşıyan məktəbin bərpası zamanı çıxışında, bizim muzeydə olarkən, mədəniyyət xadimləri ilə görüşəndə səsləndirdiyi fikirlər Tağıyev irsinə diqqət və hörmətin bariz nümunəsidir. Bu, bizi sevindirir.

*– Bir az da hazırda muzeyin fəaliyyətindəki yeniliklərdən danışaq...*

– Bizim ən böyük yeniliyimiz bu oldu ki, ölkədə Vətən müharibəsinə aid ilk sərgi təşkil edildi. Ötən ilin may ayında sərgini açdıq və bu gün də davam edir. Biz müharibə bitmədən sosial şəbəkələr vasitəsilə şəhid ailələrinə və qazilərə şəxsi əşyalarını muzeyə təhvil verməsi ilə bağlı müraciət etdik. Təsəvvür edin ki, müharibə bitmədən qazi və şəhid ailələri bizə şəxsi eksponatlar təqdim etməyə başladılar. Materialların çox olduğunu görüb ayrıca bir struktur – Vətən müharibəsi fondu yaratdıq. Çünki bu tarixi və Qələbəni yazmaq lazımdır. Təqdim olunan bütün eksponatlar bu fondda toplanır. Hazırda iki mindən çox material var. Polad Həşimovun əşyalarından başlayaraq 200-dən çox şəhid və qaziyə aid material bu fondda sərgilənir. Sərginin kataloqu da çap olunub.

*– “Şuşa İli” ilə bağlı nələr gözlənilir?*

– “Şuşa İli” ilə əlaqədar muzeyin kolleksiyası əsasında Şuşanın tarixinə həsr olunmuş böyük sərgi hazırlanır. Sərgi noyabr ayına nəzərdə tutulub. Bu sərgi çərçivəsində “Qarabağın mədəni-tarixi irsi” mövzusunda respublika elmi konfransı təşkil etməyi düşünürük.

Bundan əlavə, may ayında muzeyin silah kolleksiyasına həsr olunmuş sərgimiz açılacaq. İl ərzində kitablarımız nəşr olunacaq. Yeri gəlmişkən qeyd edim ki, ötən il muzeydə 18 kitab nəşr olunub. Bu kitabların bəziləri muzeyin fondları əsasında yazılıb, bəziləri isə elmi məqalələrdən ibarətdir.

*– Muzeyin tarix ekspozisiyası nə zaman açılacaq?*

– Bizim ən böyük problemimiz və ağrılı məsələmiz tarix ekspozisiyamızın bağlı olmasıdır. Artıq aidiyyəti dövlət qurumlarına müraciət olunub və müsbət cavab alınıb. Ekspozisiya ilə bağlı işlərə başlanılıb. İnanıram ki, bu il ziyarətçilər ekspozisiyanın tarix hissəsini də görə biləcəklər.

*– Sonda öz elmi yaradıcılığınızla bağlı yeniliklər haqqında məlumat verərdiniz...*

– 1905–1906-cı illərdə Qarabağda və Zəngəzurda erməni terroru mövzusunda kitabım nəşr olunacaq. Faktiki olaraq ermənilərlə toqquşmalar məhz bu ildən başlanılıb və ən qanlı qırğınlar Zəngəzur və Şuşada törədilib. İkinci kitab isə, qeyd etdiyim kimi, Sara xanımın xatirələri ilə bağlıdır.

**Lalə Azəri**

## Bölgələrdən xəbərlər

## Şuşa – “Şərqin konservatoriyası”

Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı rayon Heydər Əliyev Mərkəzində “2022-ci il “Şuşa İli”dir” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə “Şuşa İli”nin əhəmiyyəti barədə danışılıb, qala-şəhərimizin tarixi, təbiəti, abidələri və görkəmli şəxsiyyətlərindən söz açılıb. Sonda tədbir iştirakçıları eyniadlı videoçarxı izləyiblər.



Şəmkir RMİ-nin rəisi Azər Rəcəbov idarənin tabeliyindəki uşaq musiqi, incəsənət və aşıq məktəblərinin direktorları ilə görüşüb. Görüşdə 2022-ci ilin “Şuşa İli” elan edilməsi ilə bağlı il ərzində məktəblərdə görüləcək işlərdən, təklif və layihələrdən söz açılıb.

Biləsuvar RMİ-nin tabe müəssisəsi olan Cəbrayıl rayon MKS-nin 21 saylı Yuxarı Mərcanlı kənd kitabxana filialı Cəbrayıl rayon 14 saylı tam orta məktəbində “Şuşa, sən azadsan!” başlığı altında sərgi təşkil edib.

Şəki RMİ S.Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Şərqin konservatoriyası – Qafqazın sənət məbədi” adlı tematik gecə keçirilib. Tədbirdə “Şuşanın dağları” mahnısı, Şuşa zəfərinə həsr olunmuş şeirlər söylənilib.

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Şuşa, sən azadsan!” adlı tədbirdə mədəniyyət paytaxtımıza həsr edilmiş şeirlər, mahnılar səsləndirilib, rayon Xalq teatrının hazırladığı səhnəcik nümayiş etdirilib.

Sumqayıt RMİ Sumqayıt MKS-nin Uşaq şöbəsi tərəfindən “Şuşa İli” münasibətilə “Tarix sənin torpağında, daşındadır” mövzusunda sərgi təşkil edilib. Sərgidə 270 yaşlı şəhərimizin tarixi-mədəni zənginliklərini əks etdirən nəşrlər yer alıb.

Xəbər verildiyi kimi, 2 fevral – Azərbaycan Gəncləri Gününün təsis edilməsinin 25 illiyi münasibətilə Gənclər və İdman Nazirliyi tərəfindən “Gənclər həftəsi” elan olunub. Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində bu münasibətlə müxtəlif tədbirlər keçirilir.

## Gənclər gələcəyimizdir



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğının təbliğinə həsr olunan tədbir keçirilib. Çıxışlarda Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əhəmiyyəti vurğulanıb. Həmçinin əlamətdar gün münasibətilə rayon gənclərinin mərkəzə ekskursiyası təşkil edilib. Ekskursiya zamanı gənclər ulu öndərin siyasi irsi ilə bağlı əyani vəsaitlərlə tanış olublar.

Sabirabad RMİ Sabirabad rayon Mədəniyyət Mərkəzində “Gənclər həftəsi” çərçivəsində rəsm sərgisi təşkil olunub. Sərgidə yeniyetmə və gənc rəssamların çəkdikləri müxtəlif mövzuları əhatə edən rəsm əsərləri nümayiş etdirilib.

Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) Astara Dövlət Rəsm Qalereyası və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Gənclər gələcəyimizdir” mövzusunda keçirilən rəsm sərgisinə yekun vurulub. Astara Rayon Dövlət Rəsm Qalereyasını təmsil edən 18 nəfər yeniyetmə və gəncin çəkdiyi rəsmlər münsiflər heyəti tərəfindən qiymətləndirilib. Qaliblər diplomlar və hədiyyələrlə mükafatlandırılıblar.

Ağstafa RMİ Ağstafa Dövlət Rəsm Qalereyasında “Gənclər Azərbaycanın bu günü və sabahıdır” adlı rəsm sərgisi keçirilib. İdarə rəisi Nurəddin Mehdiyevin də iştirak etdiyi sərgidə fərqlənən gənclər fəxri fərmanla təltif olunub.



Ağdaş RMİ Ağdaş Dövlət Rəsm Qalereyası və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Gənclər Günü – 25” mövzusunda gənclərin əl işlərindən ibarət rəsm sərgisi açılıb. Sərgidə 28 gənc rəsm həvəskarının çəkdiyi 40-a yaxın əl işi nümayiş olunub.

Xaçmaz RMİ-nin tabe müəssisəsi olan Qusar Dövlət Rəsm Qalereyasında Azərbaycan Gəncləri Gününə həsr olunan sərgi açılıb. Sərgidə gənc rəssam Söhrab Nağıyevin və Uşaq incəsənət məktəbinin istedadlı şagirdlərinin, ümumilikdə 36 əsəri nümayiş etdirilib.




Gəncə RMİ Samux rayon Heydər Əliyev Mərkəzində “Azərbaycan gəncləri – Azərbaycanın gələcəyi” başlığı altında intellektual yarış keçirilib. Samux rayonu üzrə 22 (şəhər, qəsəbə və kənd) məktəblinin qatıldığı yarış 3 mərhələdən ibarət olub. Samux şəhər 3 saylı tam orta məktəb I, İnstitut qəsəbə tam orta məktəb II, Samux şəhər 2 saylı tam orta məktəb isə III yerə layiq görülüb.

İsmayıllı RMİ, rayon Gənclər və İdman İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi İsmayıllı rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə rəsm sərgisi keçirilib. Gənclərin yaradıcılıq qabiliyyətlərinin inkişafı və asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə keçirilən sərgidə gənc rəssamların əsərləri nümayiş olunub.

## Vətənin qəhrəmanları unudulmur




Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində Birinci Qarabağ müharibəsi şəhidi Natiq İmanovun anım gününə həsr olunan “Şəhadətin 28-ci zirvəsi” adlı tədbir keçirilib. Çıxışlarda şəhidin döyüş yolundan söhbət açılıb.

Sumqayıt RMİ Abşeron rayon Mədəniyyət Mərkəzi və Mehdiabad qəsəbə Diyarşünaslıq evinin əməkdaşları şəhid Babək Allahverdiyevin ailəsini ziyarət edib, qayğıları ilə maraqlanıb, maddi və mənəvi dəstək olublar. Abşeron rayon MKS “Xan qızı Natəvan” ədəbi məclisi ilə birgə “Sən şəhid anasısan” adlı tədbir keçirib. Tədbirdə iştirak edən şəhid anaları qəhrəman oğulları ilə bağlı xatirələrini bölüşüblər. Sumqayıt MKS-nin Uşaq şöbəsi “Silahı məhəbbət, son sözü Vətən” və “Şəhidlər evə qayıdır” başlıqlı sərgilər təşkil edib.

Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) Məhsəti Gəncəvi Mərkəzində “Vətən müharibəsi fotoqrafların gözü ilə” layihəsi çərçivəsində şəhərdə səfərdə olan yerli və xarici fotoqrafların sərgisi keçirilib. Sərgidə fotoqrafların layihə çərçivəsində Şuşa, Ağdam, Füzuli, Tərtər və Gəncədə çəkdikləri şəkilləri nümayiş etdirilib.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Masallı Dövlət Rəsm Qalereyası və “Ümidim Sənsən” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Birinci Qarabağ və 44 günlük Vətən müharibəsi qəhrəmanlarının tanıdılması, onlarla bağlı məlumatların əldə edilməsi məqsədilə “Vətənin ölməz oğulları” adlı layihəyə başlanılıb. Tədbirdə çıxış edənlər layihənin əhəmiyyətini yüksək qiymətləndirib, ilboyu həyata keçiriləcək silsilə tədbirlər haqqında məlumat veriblər. Çıxışlardan sonra Masallı şəhər 2 saylı tam orta məktəbin şagirdləri şəhidlərin xatirəsinə həsr olunan ədəbi-bədii kompozisiya təqdim ediblər.

## Müxtəlif səpkili tədbirlər

Şəki RMİ Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbi Qazaxıstanın Astana şəhərində keçirilən onlayn beynəlxalq vokal və instrumental müsabiqəsində təmsil olunub. Şagirdlərdən Hicran İsmayılova, Nazlı Hacıməsimova I, İlknur Həmzətli, Səma Lətifova, Murad Mustafayev II, Şəms Həmidova isə III dərəcəli laureat adını qazanıb.



Sumqayıt RMİ Zəngilan rayon Mədəniyyət evində “Qarabağ ilmələrdə” adlı sərgi açılıb. Tədbirdə idarənin Zəngilan rayonu nümayəndəliyinin baş məsləhətçisi Mehman Nəsirov və digər qonaqlar xalçaçılıq sənəti, xalçaçılığın inkişafı, maddi mədəni irsin qorunması haqqında çıxışlar ediblər.



Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin 1 saylı şəhər klubunda “Narkomaniya insanlığın düşmənidir” mövzusunda tədbir keçirilib. Çıxış edənlər narkomaniyanın fəsadları barədə söz açıblar.

Masallı RMİ Cəlilabad rayon Heydər Əliyev Mərkəzində “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”na əsasən, Cəlilabad şəhər 11 saylı “Mələk” körpələr evinin iştirakı ilə tədbir keçirilib. Mərkəzin direktoru Ofeliya Qəhrəmanova uşaqları zərərli informasiyalardan qorumaqla bağlı valideynlərlə söhbət aparıb. Sonra balacalar Mədəniyyət Nazirliyinin dəstəyi ilə istehsal olunan “Xeyirxah kirpi”, “Balaca ev” və “Ən güclü kimdir?” cizgi filmlərini izləyiblər.

**Hazırladı: N.Məmmədli**

# Gəncənin sənət ocaqlarında görüşlər

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, Teatr sektorunun müdiri Könül Cəfərova və baş məsləhətçi Emin Əliyev 27-28 yanvar tarixlərində Gəncədə işgüzar səfərdə olublar.

Nazirliyin nümayəndələri Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətovla birlikdə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında, Gəncə Dövlət Dram Teatrında və Gəncə Dövlət Kukla Teatrında olublar.



Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının musiqi kollektivlərinin – "Göygöl" mahnı və rəqs ansamblının, Kamera orkestrinin, Xalq çalğı alətləri ansamblının və "Xəmsə" estrada ansamblının ifasında konsert proqramları təqdim edilib.

Gəncə Dövlət Dram Teatrının Nüşabə Əsəd Məmmədlinin eyniadlı əsəri əsasında hazırlanan (quruluşçu rejissor Əsgər Əsgərov) "Cavad xan" tamaşasına və Gəncə Dövlət Kukla Teatrında Xanımana Əlibəylinin əsəri əsasında Şamil Məmmədlinin quruluş verdiyi "Bizim bağın gözəli" tamaşasına baxış keçirilib.



Hər iki teatrın yaradıcı kollektivi ilə görüşlər keçirilib, mövcud problemlər və gələcək inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Nazirliyin əməkdaşları kollektivlərə yeni sənət uğurları arzulayıblar.

# Əsrarəngiz "Bir Xəzər əfsanəsi"



2022-ci ildə özünün ilk premyerasını (30 yanvar) bu dəfə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı etdi. Özü də çağdaş milli bəstəkarlıq məktəbi nümayəndələrindən birinin tarixi qəhrəmanlıq motivləri əsasında ərsəyə gətirdiyi nümunə ilə. Teatrın balet truppası Lalə Cəfərovanın "Bir Xəzər əfsanəsi" adlı balet tamaşası ilə sənətsevərlərə xoş ovqat bəxş etdi.

İlkin məlumat üçün vurğulayım ki, "Bir Xəzər əfsanəsi" adlı baletin libretto müəllifi də Lalə Cəfərovadır. Tamaşanın quruluşçu baletmeysteri Xalq artisti Kamilla Hüseynova, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Tehran Babayev, dirijoru Antal Dorati adına beynəlxalq müsabiqənin laureatı Orxan Həşimovdur.

Milli kolorit və döyüş ruhunun harmonik həll olunduğu səhnə nümunəsində əsas partiyaları balet truppasının aparıcı solistləri – Əməkdar artistlər Anar Mikayılov (Xəzər şah), Makar Ferştandt (İbrahim şah), həmçinin gənc solistlərdən Ayan Eyvazova (Türkan), Seymur Qədiyev (Turan) və İslam Məmmədov (Oğuz) ifa edirdilər.

İkipərdəli tamaşada, dediyim kimi, cəng ovqatı daim ön planda oldu. Tamaşaçı çağırış ruhlu musiqinin sədaları altında döyüş təsvirini görür və daim iki hissin – savaş ilə sülhün dil tapacağına inanır. Ulu məhəbbətin bu dəfə də zəfər çalacağını düşünür.

...Gənc və güclü Turan döyüş meydanındadır. İbrahim şah bu sadiq sərkərdəsini yeni cəngə, bəlkə də dönülməz səfərə yola salır – ona Xəzər şaha qarşı savaşa atılmağı əmr edir.

Digər tərəfdə qüdrəti ilə aləmə ün salan basılmaz Xəzərin cəngavərləri azad torpaqlarında qurduqları əyləncədə, güc nümayişindədirlər. Bu zaman Turan şahın sarayına yaxınlaşır və onun qızı Türkanla qarşılaşır. Bir-birinə aşiq olan gənclər bunu heç kimdən gizlədə bilmirlər. Təbii ki, düşmən torpaqlardan gələn elçi şahın qəzəbinə düçar olur və onun əmri ilə zindana atılır.

İki gəncin sevgisi daha da alışır və sonda şah qızının məhəbbəti qarşısında aciz qalır. O, Turanı azad edirir və gənclər evlənirlər.

Məsud cütlük çox xoşbəxtdir. Doğulacaq övladlarını gözləyirlər. Amma qəfil elçi hər şeyi alt-üst edir. İbrahim şah israrla sərkərdəsini geri çağırtdırır. Ayrılıq məqamında sevgilisinə doğulacaq övladı üçün seçdiyi bazubəndi verən igid Turan elinə dönür.

İkinci pərdədə artıq müəyyən zamanın ötdüyünü və Turanla Türkanın Oğuz adlı oğlanlarının olduğunu görürük. Atasından xəbərsiz Oğuz böyüyərək igid bir döyüşçü olur. Bu illər ərzində Türkanın nə sevgisi, nə də həsrəti azalmır.

Günlərin bir günü dostları ilə yarışda bazubəndini yerə salan Oğuz ətrafındakıların diqqət və sorğu-sualından sonra, nəhayət, atası haqqında həqiqəti öyrənir. Anasının etirazına baxmayaraq, atasını tapmaq, ona qovuşmaq üçün yürüşə çıxır.

İkinci şəkil artıq İbrahim şahın sarayındakı təşvişli təsvirlə başlayır. Oğuzun kimliyi barədə məlumat alan xain şah əsas arzusunu reallaşdırmaq üçün tədbir tökür. Ata ilə oğulu, bir-birindən xəbərsiz iki cəngavəri döyüşdürür. Bununla intiqamını hər iki tərəfdən alacağını düşünür. İstəyinə də çatır.

bitən emosional səhnə nümunəsi tamaşaçılarda dərin izlər buraxdı.

Pərdə və şəkillər arasındakı görünən rabitə və mövzunun xoreoqrafik xronikası qüvvətli alınmışdı.

Ümumilikdə iki pərdə və beş şəkildən ibarət baletdə ideya, onun həlli və tamaşaçını sürətlə dəyişən emosional vəziyyətlərə salan quruluş xətti diqqətəlayiqdir. Tamaşada ideya, dolğun məzmun və obrazların dərin emosional-psixoloji ifadəsi hakim idi. Müəllifin yeni yollar və ifadə formaları ilə mövzuya nüfuzunu və tamaşaçıdakı təəssürata öncədən bələdçilik etmək cəhdini də görürük.



Üçüncü şəkil döyüş meydanı ilə başlayır. Gənc və dəliqanlı Oğuz meydanda var-gəl edir. Turan və dəstəsi yetişir, qızğın döyüş başlayır. Gənc Oğuz bir həmlədə Turanı yerə yıxır. Lakin zərbə endirməyə əli gəlmir. Amma xəbərsiz ata əlinə düşən ilk fürsətdə Oğuza ölümcül zərbə endirir, qolları yana düşən Oğuzun bazubəndini görən Turan hər şeyi anlayır.

Bu məqam atanın əzab çırpıntıları, övlad qatili olmağının yaşatdığı amansız hiss onun acı fəryadı ilə nəticələnir. Oğuz isə əksinə, ölüm mələyi ilə qarşılaşmasına rəğmən xoşbəxtdir, çünki artıq atasına qovuşub. Artıq son anlarını yaşadığını bilsə də, məsuddur.

Oğlunu qolları arasına alan atanın səhnəni tərk etməsi ilə

Musiqidəki parlaq milli özünəməxsusluq, tembr rəngarəngliyi və bunun oyunda effektivliyinin sərgilənməsi baxımlı və ən əsası qüvvətli təsir ilə nəticələndi.

Onu da qeyd edək ki, Lalə Cəfərova Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar müəllimdir. Bir simfoniya, fortepiano və simfonik orkestr üçün iki konsert, simfonik süitalar, kamera, instrumental və caz əsərlərinin, mahnı və marşların müəllifi olan bəstəkar, eyni zamanda bədii-sənədli filmlərə musiqi yazıb. Əsərləri Azərbaycan Dövlət Akademik Filarmoniyasında simfonik orkestr və xorun ifasında dəfələrlə səslənib...

**Həmidə Nizamiqızı**

## "BÖYÜK QAYIDIŞ"IN LAYİHƏSİ

# "Böyük qırmızı ev"in çəkilişləri başa çatıb

Mədəniyyət Nazirliyinin ötən il təşkil etdiyi "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsində qalib olan "Müharibə uşaqları" (yeni adı ilə "Böyük qırmızı ev") bədii-sənədli filminin çəkilişləri başa çatıb.



Mədəniyyət Nazirliyinin sifarişi əsasında "Azərbaycanfilm" Kinostudiyasında istehsal edilən, çəkilişləri Bakı və Gəncə şəhərlərində aparılan 15 dəqiqəlik ekran işinin montaj işləri yekunlaşmaq üzrədir.

Bədii-sənədli filmdə 2020-ci ilin İkinci Qarabağ müharibəsi gedişində Ermənistanın terror hücumları nəticəsində fiziki və psixoloji travmalara məruz qalmış uşaqların həyatlarına işıq tutulur.

Filmin ssenari müəllifi və rejissoru Leylaxanım Qənbərli, quruluşçu operatoru Daniel Quliyev, kreativ prodüseri İradə Bağırzadə, icraçı prodüseri Vidadi Rüstəmov, prodüseri Fariz Əhmədovdur. Filmdə kuklaçı obrazını aktyor Namiq Ağayev ifa edir.

Qeyd edək ki, müsabiqə milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan dövlət studiyalarının və müstəqil prodüser mərkəzlərinin fəaliyyətini stimullaşdırmaq, habelə Vətən müharibəsində qazanılmış böyük Zəfərə kino vasitəsilə töhfə vermək məqsədilə elan olunmuşdu. Münsiflər heyəti tərəfindən bədii-kinematoqrafik keyfiyyətləri nəzərə alınmaqla 26 iş arasından bədii, sənədli və animasiya olmaqla ümumilikdə 11 layihə qalib seçilmişdi.

# Qısametrajlı "İmtahan"

Rejissor Ruslan Mollayev "İmtahan" qısametrajlı bədii filminin çəkilişlərini yekunlaşdırıb.



Filmin mövzusu insanların bir-birlərinə və hadisələrə laqeydliyi üzərində qurulub.

Quruluşçu operatoru Səid Rzalı olan ekran əsərində baş rolları Vüqar Alimov və Murad Məmmədov canlandırıblar.

# Akademik Musiqili Teatrda "Leyli və Məcnun"

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dahi bəstəkar Ü.Hacıbəylinin "Leyli və Məcnun" muğam operasının motivləri əsasında librettosu və quruluşu rejissor Samir Qulamova aid olan eyniadlı tamaşanın məşqlərinə başlanılıb. Tamaşanın ideya müəllifi və bədii rəhbəri Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir.

Səhnə əsərinin quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Emin Əliyev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, muğam ifası üzrə məsləhətçisi Xalq artisti Səkinə İsmayılova, solo tar ifaçıları Əməkdar artist Elxan Mansurov, Səxavət Məmmədov, konsertmeysteri Nərminə Əbdürəhmanova, rejissor assistentləri Əmrah Dadaşov və Sevinc Məmmədovadır.

Leyli obrazını VII Muğam televiziya müsabiqəsinin qalibi İlahə Rüstəmova, Məcnun obrazını isə respublika və beynəlxalq muğam müsabiqələrinin laureatı Orxan Hüseynli canlandıracaq.



Bakıdakı Rus evi "Sodrujestvo" ədəbi təşkilatı ilə birgə tanınmış rus şairəsi Rimma Kazakovanın (1932-2008) anadan olmasının 90 illiyinə həsr edilən ədəbi qiraətlər keçirib.

# Bakıdakı Rus evində ədəbi qiraətlər

## Rimma Kazakovanın 90 illiyi münasibətilə

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (RİMM) verilən məlumata görə, "Rossotrudniçestvo"nun Bakıdakı nümayəndəliyinin bölmə müdiri Dmitri Yeqorov tədbir iştirakçılarını salamlayıb.

"Sodrujestvo" ədəbi təşkilatının rəhbəri Paşa Yusupov şairənin hələ gənc ikən, 1960-cı illərdə nəşr edilən ilk şeirlər toplusundan bəhs edib. Kitabı o dövrün gənc yazarları – 1970-1980-ci illərdə rus poeziyasının tanınmış simaları olan Nikolay Dorizo, Yaroslav Smelyakov, Sergey Vasilyev redaktə etmişdilər.

"Literaturnıy Azerbaydjan" jurnalının şöbə müdiri, Azərbaycan Yazıçılar Birliyinin üzvü Alina Talıbova Rimma Kazakova ilə Bakıda poeziya festivalında görüşlərindən söhbət açıb, onun unikal və qeyri-adi istedadının xüsusiyyətləri barədə danışıb.

Şair Elberd Tumanov öz şeirlərini söyləyib.

Tədbir iştirakçılarına Rimma Kazakovanın həyat və yaradıcılığı barədə "Onun sayəsində deyil, ona rəğmən yaşamaq" adlı videoçarx təqdim edilib, həmçinin tanınmış rus yazıçılarının kitabları hədiyyə edilib.

Ədəbi qiraətlərə "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin tədris proqramları üzrə əlaqələndiricisi Lyubov Yakunina yekun vurub.

## BOLŞOY TEATRIN ULDUZLARINDAN BİRİ

# Məşhur vokalçının Bakıda ustad dərsləri

Rusiyanın Əməkdar artisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı, Moskva Dövlət Konservatoriyasının professoru Larisa Rudakova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı rəhbərliyinin dəvəti ilə teatrda çalışan gənc vokalçılara ustad dərsi keçəcək.

Ustad dərsləri 6-13 fevral tarixində keçiriləcək.

L.Rudakova 1992-ci ildə Moskva Dövlət Konservatoriyasını bitirərək Akademik Böyük Teatrda (Bolşoy Teatr) çalışmağa başlayıb. Lirik-koloratur səs tembrli vokalçı 90-cı illərdə bir-birinin ardınca beynəlxalq müsabiqələrdə qalib gəlib. 1995-ci ildə BBC tele-



korporasiyası Larisa Rudakovanın adını dünyanın ən yaxşı gənc vokalçısı beşliyinə daxil edib.

Larisa Rudakova Bolşoy Teatrla yanaşı, dünyanın bir sıra məşhur opera səhnələrində çıxış edib, N.Gedda, V.Kazarova, P.Dominqo, F.Arayza, L.Nuççi, Y.Nesterenko, Y.Obrazsova, T.Sinyavskaya kimi opera ulduzları ilə eyni səhnəni paylaşıb. Teatr səhnəsində Violetta ("Traviata"), Müzetta ("Bohema"), Cilda ("Riqoletto"), Mikaela ("Karmen"), Lyudmila ("Ruslan və Lyudmila"), İolanta ("İolanta") və başqa partiyaları ifa edib.

P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının müəllimi olan vokalçının tələbələri beynəlxalq müsabiqələr laureatıdır, Rusiya və Avropa teatrlarında solist olaraq çalışırlar.

Xatırladaq ki, Larisa Rudakova 2009-cu ildə Bakıda konsert proqramı ilə çıxış edib, 2019-cu ildə isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı rəhbərliyinin dəvəti ilə azərbaycanlı həmkarlarına ustad dərsi keçib.

# Şair Osman Əhmədoğlunun xatirə gecəsi keçiriləcək

Fevralın 12-də Beynəlxalq Muğam Mərkəzində (BMM) şair-publisist Osman Əhmədoğlunun (Dərviş Osman) xatirə gecəsi keçiriləcək. Tədbir AMEA Folklor İnstitutu, BMM və "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə gerçəkləşəcək.

Folklor İnstitutunun direktoru, akademik Muxtar Kazımoğlu-İmanov, Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı şairin ömür və yaradıcılıq yolu barədə çıxış edəcəklər.

Tədbirin bədii hissəsində tanınmış incəsənət ustaları və aşıqların ifasında konsert proqramı təqdim olunacaq.

Osman Əhmədoğlu 1948-ci ildə Gürcüstanın Marneuli (Borçalı) rayonunun Keşəli kəndində anadan olub. Keşəli və qonşu Kəpənəkçi kənd məktəblərində təhsil alıb. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin (BDU) Filologiya fakültəsini bitirib. Borçalı Rayon Mədəniyyət Şöbəsində müxtəlif vəzifələrdə çalışıb. Gürcüstan Aşıqlar Birliyinin sədri olub. Yeniyetməlik illərindən şeir yazan Osman tələbəlik dövründən başlayaraq mətbuatda tariximəfkurəvi mövzulu yazılarla çıxış edib.

"Osman Keşəli", "Osman Əfəndi", "Dərviş Osman" imzaları ilə tanınan istedadlı şairin "Borçalıda ocaq yanır" adlı ilk şeirlər kitabı 1989-cu ildə Bakıda "Yazıçı" nəşriyyatında işıq üzü görüb. Şair 2020-ci il martın 18-də dünyasını dəyişib, doğulduğu kənddə dəfn olunub.

# "Salamat qayıtsam, Vətən torpağında rahat gəzə bilərəm..."




Torpaqlarımızın azadlığı üçün öz canını fəda edən igidlər hər zaman xalqımızın qəlbində yaşayırlar. Vətən naminə şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız yeni nəsillər üçün əsl örnəkdirlər. II Qarabağ müharibəsinin igid şəhidlərindən biri də kapitan Zülfüqar İsmi oğlu Qubatovdur.

Zülfüqar Qubatov 1975-ci il sentyabrın 25-də Ağsu rayonunun Dilman kəndində anadan olub. Orta təhsilini kənd orta məktəbində alıb. 1992-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Azərbaycan Ali Hərbi Məktəbi) qəbul olunub. 1995-ci ildə leytenant rütbəsi alaraq məktəbi bitirib, 3 ay Türkiyədə təlim kursu keçib. 2008-ci ilədək Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müxtəlif hərbi hissələrdə xidmət edib. 2008-ci ildə ehtiyata buraxılıb.

Zülfüqar Qubatov 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlananda yenidən hərbi formanı geyinərək cəbhəyə yollanır.



Şəhidin həyat yoldaşı Aynur Qubatova həmin günü belə xatırlayır: "28 sentyabrda axşam təxminən saat 8 olardı. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu rayon şöbəsindən Zülfüqarın telefonuna zəng gəldi. Övladları ilə görüşərək onlara "Mən Azərbaycan Ordusunda zabit olmuşam. Bu, mənim Vətənə xidmət etmək borcumdur. Allahıma şükürlər olsun ki, mənə bu fürsəti verdi", – deyərək yola düşdü...".

Zülfüqar Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış və Suqovuşan yaşayış məntəqələri istiqamətində döyüşlərdə böyük şücaət göstərir. Oktyabrın 14-də Suqovuşan istiqamətində ağır döyüşlər zamanı şəhidlik zirvəsinə ucalır.

Aynur xanım bildirir ki, Zülfüqar Vətəni onun yolunda canından keçəcək qədər sevirdi: "Müharibə vaxtı tez-tez bizimlə əlaqə saxlayırdı. Övladları ilə danışan zaman onlara "Sağ-salamat qayıtsam, artıq Vətən torpağında rahat gəzə bilərəm. Şəhid olsam, siz rahat olun, mənimlə fəxr edin" deyirdi. Bizimlə danışanda hər şeyin yaxşı olduğunu söyləyib, narahat olmamağı tapşırırdı. Ancaq son danışıqlarının birində "Hər şeyə hazırlıqlı olun, haqqınızı halal edin" söylədi".

1997-ci ildə ailə həyatı quran Zülfüqarın Şəbnəm, Nəzri və Ömər adlı üç övladı Vətənə əmanət qalıb. Bundan sonra bu üç şəhid övladı qalib xalqın nümayəndələri kimi azad Vətən torpağında yaşayacaqlar.

Zülfüqar Qubatov oktyabrın 15-də doğulduğu Dilman kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Teatrşünas, rejissor Şaiq Səfərov vəfat edib



Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış teatrşünas, rejissor Şaiq Səfərov yanvarın 27-də, 68 yaşında vəfat edib.

Şaiq Cabir oğlu Səfərov 1954-cü il dekabrın 18-də Bakı şəhərində anadan olub. 1972–1977-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Rejissorluq fakültəsini bitirib. Müxtəlif illərdə Gəncə Dövlət Dram, Sumqayıt Dövlət Dram, Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Akademik Rus Dram teatrlarında çalışıb.

Şaiq Səfərov bir müddət Mədəniyyət Nazirliyinin İncəsənət şöbəsində Teatr sektorunun müdiri olub. 2012, 2014, 2016 və 2018-ci illərdə Bakıda Beynəlxalq Teatr Konfransının və 2011, 2013-cü illərdə Beynəlxalq Kukla Teatrları Festivalının keçirilməsi ilə bağlı hazırlıq, təşkilati işlər böyük ölçüdə Şaiq Səfərovun adı ilə bağlıdır. O, həmçinin dəfələrlə Azərbaycanı xarici ölkələrdə teatr simpoziumlarında, treninq və seminarlarda layiqincə təmsil edib.

Bir neçə dil bilən teatr xadimi tərcüməçiliklə də məşğul olub, dünya ədəbiyyatının tanınmış nümayəndələrinin əsərlərini dilimizə çevirib.

Şaiq Səfərovun xatirəsi onu tanıyan sənətsevərlərin və həmkarlarının qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

# Şuşanın 270 illiyi münasibətilə beynəlxalq elmi konfrans

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm Tarixi İnstitutu (ETİ) mayın 8-də Şuşa şəhərinin 270 illiyinə həsr olunan "Azərbaycanın elm və mədəniyyət mərkəzi – Şuşa" mövzusunda beynəlxalq elmi konfrans keçirəcək.

Beynəlxalq konfrans ölkə başçısının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncamına uyğun olaraq təşkil ediləcək. Konfransın məqsədi şəhərin tarixi, görkəmli şəxsiyyətləri, milli-mənəvi və sosial-mədəni irsi, ədəbiyyat, incəsənət, memarlıq, din, fəlsəfə və digər aspektlərdən araşdırılmasıdır.

Konfrans Azərbaycanın mədəniyyət paytaxtı olaraq Şuşa və onun tarixi, Şuşanın Azərbaycan ədəbi irsində yeri, Şuşada incəsənət və memarlıq nümunələri, Şuşada dini-mədəni abidələr, Şuşanın geosiyasi əhəmiyyəti və 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər və digər mövzuları əhatə edəcək.

Konfransa alimlər, elmi işçilər, doktorant və magistrlər məruzə və məqalələr təqdim edə bilərlər. Məqalələr Azərbaycan, türk, ingilis və ya rus dillərində aprelin 1-dək elmtarixi@gmail.com elektron poçt ünvanına göndərilməlidir.

# Musiqişünas və pedaqoq ömrü

## Elmira Abbasova – 90

Bu il görkəmli musiqişünas alim, pedaqoq, Əməkdar incəsənət xadimi, mərhum professor Elmira Abbasovanın anadan olmasının 90 illiyidir. XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simaları, o cümlədən Üzeyir Hacıbəyli yaradıcılığı haqqında sanballı əsərlərin müəllifi kimi tanınan alim indiki Bakı Musiqi Akademiyasının ilk qadın rektoru olub.

Elmira Əbdülhəmid qızı Abbasova 10 yanvar 1932-ci ildə Bakıda dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərib. Orta məktəblə yanaşı, yeddiillik musiqi məktəbində də oxuyub. Həmyaşıdları arasında istedadı və ictimai fəallığı ilə daim fərqlənib. Musiqi müsabiqələrində qazandığı uğurlar onu bu sənətə ülvi tellərlə bağlayıb.

Orta məktəbi başa vurduqdan sonra Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) musiqişünaslıq ixtisasına qəbul olunub. 1955-ci ildə təhsilini başa vuraraq əmək fəaliyyətinə elə bu musiqi tədrisi ocağında başlayır. Pedaqoji fəaliyyətlə yanaşı, elmi araşdırmalar da aparır. 1962-ci ildə Moskva Ümumittifaq Sənətşünaslıq İnstitutunda "Üzeyir Hacıbəylinin operaları və musiqili komediyaları" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası müdafiə edir. Alimin "Üzeyir Hacıbəylinin opera və musiqili komediyaları", "Üzeyir Hacıbəylinin "Koroğlu" operası", "Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq yolu" monoqrafiyaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Musiqişünas dahi bəstəkardan bəhs edərkən yazır: "O öz əsərləri ilə Azərbaycanla Avropa bəstəkarlıq məktəbi arasında əbədi bir körpü yaratdı. Məhz Üzeyir bəydən sonra Şərq və Qərb musiqisi mədəniyyətləri arasında bağlılıq öz bəhrəsini verdi. Azərbaycan bəstəkarlarının yaratdığı nəhəng musiqi abidələrinin şöhrəti elləri dolaşdı...".



Elmira Abbasovanın digər tədqiqat mövzusu görkəmli bəstəkar Qara Qarayevlə bağlı olub. O, araşdırmasında bəstəkarın zəngin irsinin tək doğma vətənində deyil, dünyada musiqisevərlər tərəfindən maraqla qarşılanmasının səbəbini açmağa çalışıb. Alim həmçinin müxtəlif nəsillərdən olan görkəmli bəstəkar və ifaçıların yaradıcılığına da diqqət yetirib. Onun Cövdət Hacıyev, Rəşid Behbudov, Soltan Hacıbəyov, Səid Rüstəmov, Qurban Pirimov, Bəhram Mansurov kimi musiqi xadimləri haqqında araşdırma məqalələri Bakı, Moskva və digər şəhərlərdə dərc olunub.

Musiqişünas eyni zamanda XX əsrdə muğamın elmi şəkildə öyrənilməsi üçün böyük səy göstərib. Araşdırmalarda qeyd edilir ki, SSRİ Bəstəkarlar İttifaqının təşəbbüsü və V.Vinoqradovun redaktorluğu ilə hazırlanan, keçmiş ittifaqın respublika və xalqlarını əhatə edən "Xalq müğənniləri və musiqiçiləri" silsilə nəşrlərində iştirak edib. Onun Q.Pirimov və B.Mansurov haqqında broşürləri həmin layihə çərçivəsində işıq üzü görüb.

1958-ci ildə, 26 yaşında Azərbaycan SSR Bəstəkarlar İttifaqının üzvü seçilən Elmira Abbasova 1962-ci ildə SSRİ Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul edilib. O, 1967-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 1975-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının katibi, eləcə də SSRİ Bəstəkarlar İttifaqı İdarə heyətinin üzvü seçilib.



Elmira Abbasova 1977-ci ildən 1991-ci ilə qədər, 14 il Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışıb. Rektorluğu dövründə zəngin ənənələri olan təhsil ocağının hərtərəfli inkişafı əlindən üçün gələni əsirgəməyib. Üzeyir bəyin dərs otağı kiçik muzeyə çevrilib, Şəfiqə Məmmədova adına opera studiyası tikilib istifadəyə verilib. Həmin illərdə bu təhsil müəssisəsində Xalq musiqisi kafedrasının bazasında Azərbaycan xalq çalğı alətləri və Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedraları yaradılıb. Onun təşəbbüsü ilə eyni zamanda Azərbaycan Bəstəkarlar İttifaqı nəzdində ictimai əsaslarla Uşaq filarmoniyası təşkil olunub.

Beynəlxalq forum, konfrans və tədbirlərdə iştirak edən professorun dünyanın çox məşhur musiqişünaslarının qatıldığı mötəbər məclislərdə parlaq çıxışları həmişə maraqla qarşılanıb. Elmira Abbasova həmçinin onlarla musiqişünas və sənətşünasın yetişməsi üçün böyük səylər göstərib.

Ölkəmizdə musiqi tədrisinin təşkilində mühüm xidmətləri olan professor Elmira Abbasova 12 fevral 2009-cu ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Gülüşümüzün xatirəsindəki kədərli adam

## Əməkdar artist Novruz Qartalı xatırlayarkən

Sənət adamları ilə şəkil çəkdirmək, gördüyüm hər yerdə yaxınlaşıb hal-əhval tutmaq kimi vərdişim yoxdur. Uzağı 3-4 aktyor ilə xatirə olsun deyə şəkil çəkdirmişəm. O da təsadüfən. Səbəbini isə heç özüm də bilmirəm. Sadəcə, mənim üçün aktyor səhnədə, kinoekranda qalsın istəyirəm. Bunun illər sonra, saysız sənət adamları ilə söhbət və görüşlərdən sonra özüm üçün izahını da tapmışam: onlar heç də hamısı bizə göstərdikləri kimi bəxtiyar, nikbin, ümidli deyillər və mən onları kulisdən xatırlamaq istəmirəm...

Bəli, etiraf etməyə nə qədər çətinlik çəksək də, sənətin şan-şöhrəti, dəbdəbə, qısası, uğur heç də hamıya nəsib olmur. Onlarla aktyor, ifaçı repertuarda sırf onun adına gələcək tamaşaçı selini gözləyə-gözləyə, adının qarşısında titullarının (əslində, bu fəxri ad məsələsi özlüyündə mübahisə predmetidir) sıralanmasını xəyal edə-edə, tamaşaçı önünə təzimə çıxan məşhur, titullu aktyor həmkarlarına gözucu həsədlə baxa-baxa, səhnənin mərkəzindəki baş rol ifaçılarının qucağına dolan gül-çiçəklərin ətri ilə məst ola-ola ən uzaq küncə, yan pərdənin az qala arxasına keçə-keçə səssizcə görünməz olurlar.

Bir çox tamaşaçı kimi, mənə görə də sənətkar ölümü səmadan sürətlə süzən ulduz axışı kimidir. Həmin an biz səmadakı o nöqtənin boşluğunda itib-batsaq da, başımızı bir də səmaya qaldıranda nə o ulduzu, nə də onun qopub düşdüyü yeri ayırd edə bilirik...

Yanvarın 8-də Azərbaycan teatr səhnəsi daha bir aktyorunu itirdi. Xırıltılı səsli, bəyaz saçlı sənətkar aylardır haqqında yazılan "ölüm yatağındadır", "həkimlər vaxt qoydu", "Əməkdar artist mənzil arzulayır", "kirayə qalan məşhur aktyorun fəryadı" kimi qaraqışqırıq xəbərlərə də üsyan edirmiş kimi əbədi sükuta qərq oldu. Beləcə, baharda doğulduğuna görə Novruz adı qoyulan, qürurlu olduğuna görə özünə "Qartal" təxəllüsü seçən gülə-gülə kədərlənən adam üzünə qonan son təbəssümü də itələyərək köçünü bu dünyadan çəkdi və fani dünyadakı ünvansız mənzilindən əbədiyyətdəki daimi evinə köçdü...

Nədənsə, son illər daha çox onu kommunal problemləri, fəxri ad giley-güzarları, səhhəti ilə bağlı narahatlıqları ilə yada salırdılar. Bilmirəm, bu, kimin təqsiridir, amma unutmaq olmaz ki, Novruz Qartal (Novruz Əliyev; 1947-2022) çalışdığı teatrın qızıl dövrünün bu günlərədək yaşayan az sayda nümayəndələrindən idi. Peşəkar, səhnədə komediyanın əsas prinsiplərini qoruyan və ən əsası, teatr tamaşası ilə səhnəcik arasındakı incə fərqi duyan aktyor idi. Yersiz improvizələrə qaçmaz, səhnədə daha çox gülüş yaratmaq üçün canfəşanlıq etməz və heç vaxt tərəf-müqabilinin oyununu "vurmazdı".

Özünü epizodik və əsas rolların mahir ifaçısı kimi tamaşaçılara sevdirməyi bacaran sənətkar Azərbaycan, eləcə də müxtəlif xarici dramaturqların əsərlərində onlarla yaddaqalan rollarda oynadı. O, "Toy kimindir?" səhnə əsərində Qoşun, "Durna"da Dursun, "Hicran"da Balaəmi, "Lənət şeytana"da İsrafil, "Özümüz bilərik"də İbişov, "Milyonçunun dilənçi oğlu"nda Xidmətçi, "Sevindik qız axtarır"da Tələbə, "Nənəmin şahlıq quşu"nda Qədim Qədimoviç və digər rolları ilə tamaşaçıların dərin rəğbətini qazanıb.

2013-cü ildə "Əməkdar artist" fəxri adına layiq görülən aktyor müxtəlif illərdə Prezident mükafatı da alıb.

Hələ pandemiyadan əvvəl teatrda məşqlərinə başlanılan "Beşmanatlıq gəlin" və aktyorun daha çox şöhrət qazandığı "Hicran" tamaşalarının yeni quruluşunun aktyor heyətində o da yer alırdı. Lakin günü-gündən ağırlaşan xəstəliyi və ortaya düşən koronavirus qadağaları onun da əl-ayağını teatrdan çəkdi. Müsahibələrinin birində "Ömrümün sonuna qədər də bu teatra sadiq qalacam. Çünki bu teatrda gənclik illərim keçib. Teatra gələndə 18-19 yaşım var idi. İndi isə artıq qocalmışam. Xalqın az-çox məhəbbətini bu teatr sayəsində qazanmışam. Az da olsa, özümü sevdirə bilmişəm", deyən aktyor yanılmadığını yaxşı anlayırdı. Həm o teatra nə qədər gərəkli olduğunu deyəndə, həm də tamaşaçıların saf sevgisini haqqı ilə qazandığını ifadə etməyə çalışanda...





Bildiyimiz kimi, komediya, xüsusən musiqili komediya çox mürəkkəb və çoxşaxəli janrdır. Bu üslubda ərsəyə gələn fundamental nümunələri, klassik əsər və onların səhnə təcəssümlərini (təbii ki, bu zaman yalnız nostalgiyaya qapıla bilirik) yada salarkən onları bizə sevdirən böyük bir aktyor nəslini də minnətdarlıqla xatırlamış oluruq. Bax, Novruz Qartal da məhz həmin üst sıralamada yer alan aktyorlardan idi və bunu heç vaxt rejissordan tamaşaçıya – heç kimə sübut etməyə çalışmırdı.

Ruhu şad olsun, qapıların kandarını ayaqlamaq, rejissorun yanını kəsdirmək, həmkarlarının dedi-qodu qazanında qaynamaq kimi vərdişi də yox idi. Teatra işi, sənəti ilə məşğul olmaq üçün gedər və insafən, bunun öhdəsindən də ustalıqla gələrdi. Aktyor kimi təpədən-dırnağa komediya janrı üçün seçilmiş adam idi.

Yəqin elə buna görə də ömrü boyu bir teatrda – Akademik Musiqili Teatrda çalışdı, onun səhnəsinə, tamaşaçısına sadiq qaldı.

1966-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Musiqili komediya aktyorluğu fakültəsini bitirən aktyor 1968-ci ildən ömrünün sonunadək bu sənət ocağında çalışdı.

Mərhum Xalq artisti, sənət dostu Hacıbaba Bağırovun rəhbərlik etdiyi "Tənqid-təbliğ" teatrında da çalışan və bu truppa ilə tamaşa-konsertlərlə ölkəni gəzən aktyor Musiqili Teatrdan da tam qopa bilməyib. Nəzərə alaq ki, 90-cı illər teatrlar, aktyorlar, ümumən sənət adamları üçün mürəkkəb dövr idi...

Aktyorun populyar rollarından danışırıqsa, "92 dəqiqə gülüş"də Xəstə, "On min dollarlıq kef"də Dayıoğlu, "Hərənin öz ulduzu"nda Kələntər, "Dəli dünya"da Tın-tın Əsəd, "O olmasın, bu olsun"da Məşədi Qəzənfər (ən sevimli rolu), "Bankir adaxlı"da Dilənçilər padşahı, "Əlin cibində olsun"da Dilənçi, "Məhəbbət oyunu"nda Daşdəmirov, "Volqa"lı canan"da Müqəddəsov, "Aldın payını, çağır dayını"da Əhmədi Biqəm, "Şeytanın yubileyi"ndə Şivanı da unutmamalıyıq.

Cari repertuara daxil olan bir sıra tamaşalarda müxtəlif xarakterli rollar oynayan aktyor həm də Yeni il tətili günlərində teatra üz tutan yüzlərlə uşağın sevimli Şaxta babası idi. Musiqili komediya janrında çəkilən iki televiziya filminin – "Gülüş sanatoriyası" (1989) və "Şirbalanın məhəbbəti"nin (1991) də populyarlaşmasında onun payı az olmayıb.

Qoy bunu da yazım, qalmasın. Əsasən həftənin ikinci günləri çalışdığı teatrın xidməti qapısının qarşısında rastlaşardıq. Yəqin ki, məşq fasiləsinə çıxırdı. Yan-yörəsində sənət dostları olsa da, o, təkliyə çəkilər, susub dayanardı. Bir gün özümü saxlamayıb ötəri salamlaşanda "Novruz müəllim, heç olmasa, keçib bulvar tərəfdə dayanın, təmiz hava alın" deyib gülümsündüm. Gülə-gülə "Mən teatrın havası ilə nəfəs alıram" dedi. Ürəyimdə onun haqqında o an nə düşündüklərimi bura yazmağı artıq hesab edirəm. Amma bir şeyə ondakı kimi indi də sevinirəm: nə yaxşı, teatrı, səhnəni belə böyük və təmənnasız məhəbbətlə sevən aktyorlar var...

**Həmidə Nizamiqızı**

# Yenilənən “Bir cənub şəhərində”

## Ekran əsəri rəqəmsal formatda bərpadan sonra nümayiş olunub

Kino sənayesi inkişaf edib ideya və formata görə yeni filmlər ortaya çıxsa da, klassik ekran əsərlərinin bəxş etdiyi izahsız nostalgiya bizləri heç cür tərk etmir. Milli kinematoqrafiyamızda kifayət qədər belə nümunələr var. Tamaşaçılar böyük şəhərdən kiçik kənd insanlarına münasibətlərə, məhəbbətdən vətənpərvərliyə, əməksevərlikdən ideoloji məhkumiyyətə qədər onlarla ekran işində özü üçün mütləq nə isə bir yaddaş yükü, xatirə boğçası tapa bilir.






Bakı və onun arxa məhəllələrinin qəribə və bir az da mübahisə doğuracaq çılpaqlığı ilə verildiyi “Bir cənub şəhərində” filmi bu mənada ən kütləvi nümunələrdəndir. Bunu filmin rəqəmsal bərpasından sonra onun nümayişinə yığılanlar, kinoekrandan dəfələrlə baxmalarına rəğmən bir də köhnə Bakının qocaman kinoteatrında izləmək zövqünü yaşamaq istəyənlər də təsdiq edirdi.





Xəbər verdiyimiz kimi, yanvarın 27-də Nizami Kino Mərkəzində C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasının 1969-cu ildə istehsal etdiyi “Bir cənub şəhərində” tammetrajlı bədii filminin bərpa olunmuş formatda nümayişi keçirildi.

“Balans” Milli Rəqəmsal Bərpa Studiyası tərəfindən həyata keçirilən layihənin təqdimatında tanınmış mədəniyyət və incəsənət xadimləri, kino sənayesi təmsilçiləri və kinoseverlər iştirak edirdi.

Buna qədər üç bədii filmi bərpa edən studiya ümumilikdə milli peşəkar kino mütəxəssisləri ilə birgə film arxivimizin rəqəmsallaşması, bərpası və rənglənməsi istiqamətində fəaliyyət göstərməkdədir.

Onu da qeyd edək ki, neqativlərin saxlanıldığı Moskva arxivindən imtina gəlməsinə rəğmən, studiya bu işi Azərbaycan Dövlət Film Fondunda qorunan lentlər əsasında reallaşdırır.

Təqdimatdan öncə çıxış edən ANS Şirkətlər Qrupunun rəhbəri Vahid Mustafayev bərpa prosesinin çətinliklərindən söz açdı. Bildirdi ki, bu kinolent müəyyən qədər aşınmaya məruz qaldığı üçün bərpa işi uzanıb. Əməkdaşlığa və dəstəyə görə Mədəniyyət Nazirliyinə və Dövlət Film Fonduna təşəkkürünü bildirən V.Mustafayev bu layihənin davam etdiriləcəyini vurğuladı.

Sonra görkəmli kinorejissor, Xalq artisti Eldar Quliyevin kino yaradıcılığı ilə bağlı qısa videoçarx nümayiş olundu.

Gecədə çıxış edən qocaman kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə hər bir filmin nümayişinin bayram olduğunu dedi və gecəni milli filmlərimizə sevginin heç də azalmadığının isbatı kimi səciyyələndirdi. Bildirdi ki, film o dövrün ideologiyasına, sosialist realizmi cərəyanına xidmət etmədiyi halda sərhədləri aşmağı bacardı və milli kinematoqrafiyamızda dönüş nöqtəsi oldu. Ekran əsəri real həyat təsvirlərinin, sadə insanların münasibət və oturuşmuş qaydaların özünəməxsus rejissor süzgəcindən keçirilərək kinematoqrafik baxımdan yüksək peşəkar və ən əsası Bakı ruhunu ifadə edən nümunəsidir.

A.Kazımzadə daha sonra dedi: “Azərbaycanda ilk rəngli film adı çəkiləndə nədənsə “O olmasın, bu olsun” (1956) yada düşür, amma bu fakt həqiqətə uyğun deyil. İlk rəngli ekran əsərimiz 1947-ci ildə çəkilən “Bakıdan Göygölədək” adlı sənədli filmdir. Lakin o, çox işləndiyinə görə xarab olub və ağ-qara variantı qalıb”. Kinoşünas bu problemin aradan qaldırılması üçün “Balans” studiyasının rəhbərinə müraciət etdi. Diqqətə çatdırdı ki, həmin filmin rənglənməsi ilə kino tariximizlə bağlı bu yanlış da aradan qalxacaq.

Gecədə daha sonra Xalq artistləri Oqtay Mirqasımov və Fəxrəddin Manafov da çıxış edərək Eldar Quliyevin kino tariximizdəki əvəzsiz yerindən danışdılar. Bildirildi ki, rejissorun filmləri Azərbaycan tarixinin, mədəniyyətinin, həyat tərzinin, mənəvi dünyasının orijinal və mükəmməl təsvirindən ibarətdir.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov çıxışında Eldar Quliyevin tələbəsi olmasından, sənətkarın onun rejissor kimi yetişməsində oynadığı roldan danışdı. O, Eldar Quliyevin əsasını qoyduğu “Debüt” studiyasında ilk sənət addımlarını atmasından böyük qürur hissi keçirdiyini bildirdi: “Sağlığında onu tərifləsəydim, mütləq məni tənbeh edərdi. Ancaq indi haqqında demək istədiklərimi çəkinmədən söyləyirəm...”.

Sonda layihəyə dəstək verən “Santral” şirkətinin təmsilçisi Elnarə Mahmudova çıxış edərək qurumun həyata keçirdiyi mədəniyyət və gənclərlə bağlı layihələrdən danışdı.

Çıxışların bitməsini səbirsizliklə gözləyən çoxsaylı tamaşaçı sonda böyük ekranda köhnə Bakının təsvirləri ilə qarşı-qarşıya qaldı. Müxtəlif nəsillərdən olan tamaşaçılar doğma məkanların, az qala indi tarix olan küçə və məhəllələrin, yeni tikililər sayəsində tanınmaz olan küçələrin köhnə adlarını, təzə-köhnə ünvanların müqayisəni etdikcə ümumilikdə kinonun istənilən texniki tərəqqi dönəmində əvəzsiz ünsiyyət vasitəsi olduğunu yenidən təsdiqləmiş oldular.

Xatırladaq ki, C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasında 1969-cu ildə istehsal edilən “Bir cənub şəhərində” bədii filmi Rüstəm İbrahimbəyovun ssenarisi əsasında rejissor Eldar Quliyevin quruluşunda ərsəyə gəlib. Filmdə əsas rollarda Həsən Məmmədov, Eldəniz Zeynalov, Hacımurad Yegizarov, Süsən Məcidova, Almaz Əsgərova və başqa tanınmış sənətkarlar çəkilib.

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 2–4 fevral

### Azərbaycan

**2 fevral 1882** – İrəvan şəhər gimnaziyasının müəllimi, maarifpərvər Məşədi İsmayılın şagirdləri ilə birgə hazırladığı V.Mədətovun “Tamahkarlıq düşmən qazanır” pyesinin tamaşası göstərilib. Bununla İrəvanda peşəkar Azərbaycan teatrının əsası qoyulub.

**2 fevral 1912** – Xalq artisti, rejissor, Dövlət mükafatı laureatı Məhərrəm Kazım oğlu Haşımov (1912 – 2.5.1969) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında, Rus Dram Teatrında baş rejissor işləyib. “Azərbaycanfilm” Kinostudiyasının direktoru (1960-1965) olub.

**2 fevral 1932** – Dilçi alim, akademik Ağamusa Ağası oğlu Axundov (1932 – 5.9.2015) Kürdəmirdə doğulub. AMEA-nın Humanitar və ictimai elmlər bölməsinin akademik katibi olub.

**2 fevral 1936** – Əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Rza oğlu Məmmədov (1936-2006) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında bir çox tamaşalara musiqi yazıb.

**2 fevral 1942** – Əməkdar mədəniyyət işçisi, aşıq Yanvar Piralı oğlu Bədəlov (1942 – 27.12.2018) İsmayıllı rayonunun Tircan kəndində doğulub.

**2 fevral 1955** – Əməkdar artist Muxtar Şahmar oğlu İbadov (1955 – 23.9.2013) Balakən rayonunda doğulub. Şəki Dram, Dövlət Gənclər teatrlarının aktyoru olub, filmlərə çəkilib.

**2 fevral 1983** – Xalq yazıçısı Əli Qara oğlu Vəliyev (27.2.1901 – 1983) vəfat edib. “Nənəmin cəhrəsi”, “Qarlı dağlar”, “Ürək dostları”, “Anaqız”, “Ötən günlər” və s. kitabların müəllifidir.

**3 fevral 1891** – İctimai xadim, jurnalist, tərcüməçi Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəyli (1891 – 22.10.1962) anadan olub. Dahi bəstəkar Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. Xalq Cümhuriyyəti dövründə “Azərbaycan” qəzetinin redaktoru olub. Sonra mühacirətə gedib, Fransada yaşayıb və orada vəfat edib. Məzarı Parisdədir.

**3 fevral 1951** – Əməkdar artist Həsənağa Hüseynəli oğlu Hüseynov (1951-2002) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub, teatrda truppa müdiri işləyib.

**3 fevral 1959** – Əməkdar artist Mərdan Əhmədiyyə oğlu Feyzullayev (1959 – 13.8.2017) Şəki rayonunun Kiş kəndində doğulub. Şəki Dram Teatrının baş rejissoru olub. 1994-cü ildən Moskvada yaşayıb, özünün yaratdığı “Dərviş” teatrında Azərbaycan müəlliflərinin əsərlərini tamaşaya qoyub.

**3 fevral 1990** – Görkəmli aktyor Hamlet Xanızadə (5.6.1941 – 1990) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, kinoda, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**4 fevral 1945** – Əməkdar rəssam Fərman Səməd oğlu Qulamov (1945 – 23.12.2016) Astara rayonunda doğulub. Əsərləri Moskvada Dövlət Tretyakov Qalereyasında, Şərq Xalqları İncəsənət Muzeyində saxlanılır. Dövlət Rəssamlıq Akademiyasının müəllimi olub.

**4 fevral 1982** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (25.12.1908 – 1982) vəfat edib. 1937-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın direktoru, baş rejissoru olub.

**4 fevral 2003** – Aktrisa Töhfə İbrahim qızı Əzimova (6.2.1938 – 2003) vəfat edib. “Qızmar günəş altında”, “Əhməd haradadır?” filmlərində çəkilib. Bakıda 1 saylı Uşaq incəsənət məktəbində fortepiano müəllimi işləyib.

### Dünya

**2 fevral 1595** – Niderland rəssamı, klassisizmin tanınmış nümayəndəsi Yakob van Kampen (Jacob van Campen; 1595-1657) anadan olub.

**2 fevral 1873** – Avstriya bəstəkarı Leo Fall (1873-1925) anadan olub. “Madam Pompadur”, “Dollar şahzadəsi” və s. operettaların müəllifidir.

**2 fevral 1882** – İrland yazıçısı və şairi, modernizmin nümayəndəsi Ceyms Coys (James Augustine Aloysius Joyce; 1882-1941) anadan olub.

**3 fevral 1809** – Alman bəstəkarı, dirijor Feliks Mendelson (Jakob Ludwig Felix Mendelssohn Bartholdy; 1809 – 4.11.1847) anadan olub. “Toy” marşının müəllifidir.

**3 fevral 1881** – Rus kinematoqrafının banilərindən biri, rejissor Yakov Akeksandroviç Protazonov (1881-1945) anadan olub.

**4 fevral 1873** – Rus yazıçısı Mixail Mixayloviç Prişvin (1873-1954) anadan olub.

**4 fevral 1915** – İngilis aktyoru, “mister Pitkin” haqqında kinokomediyalarda baş rolun ifaçısı Norman Uizdom (Norman Joseph Wisdom; 1915-2010) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

## XALÇA MUZEYİNDƏ SƏRGİ

# “Rəngarəng qobelen dünyası”

Azərbaycan Milli Xalça Muzeyində qobelen və xalça üzrə tanınmış rəssam Tamilla Abdullayevanın “Rəngarəng qobelen dünyası” adlı sərgisi açılıb.



Sərgidə xalçaçı rəssamın 1990-2022-ci illərdə yaratdığı 50-dən artıq əsər – qobelen, xalça və xalça eskizi nümayiş olunur.

Ekspozisiyada “Kəpənəklər”, “Ağaclar”, “Qədim Azərbaycan rəmzləri”, “Təbiət ünsürləri”, “Dörd fəsil” adlı silsilə əsərləri, o cümlədən abstrakt və çiçək kompozisiyalı əsərlər təqdim olunur.

Rəssam bu əsərləri yaradarkən əksər hallarda hazır eskizdən deyil, yalnız bədii ideya və improvizasiya bacarığından bəhrələnib.

Sərgidə T.Abdullayevanın ustadı, görkəmli rəssam Lətif Kərimovun yaradıcılıq yolunu davam etdirərək yaratdığı “İslimibəndlik”, “Əfşan”, “Saxsıda güllər” xalçaları da yer alır.

Yüksək zövq və romantik qəlbə sahib rəssamın bu əsərlərində rəng və ornamentlər arasında çox gözəl bağlılıq qurulub.

Sərgi çərçivəsində mühazirə, rəssamla görüş, qobelentoxuma üzrə ustad dərslər, tematik ekskursiyalar da keçiriləcək.

Sərgi fevralın 25-dək davam edəcək.

# “Aşıq divaniləri və müxəmməsləri” antologiyası çapdan çıxıb

Azərbaycan Aşıqlar Birliyinin 2022-ci ildə ilk nəşri – “Aşıq divaniləri və müxəmməsləri” adlı antologiya işıq üzü görüb.




Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı və filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədlinin tərtib etdikləri antologiya XVI əsrdən bu yana aşıqlarımızın yaratdıqları divani və müxəmməs şeir çeşidlərinin ən seçkin örnəklərini əhatə edir. Nəşrdə aşıq məclisinin açılışını, ilkin xeyir-duasını ortaya qoyan divanilərin, eləcə də qapanışını xoş bir ovqatla tamamlayan müxəmməslər tarixi-xronoloji ardıcıllıqla təqdim olunur.

Antologiyada yüzdən çox sənətkarın divani və müxəmməsləri yer alıb. Ustad məclislərində, el yığıncaqlarında dillər əzbərinə çevrilən bu nümunələr yüz illər boyu ulularımızın könül həmdəmi kimi onlara sənət yoldaşlığı edib. Toplu saz-söz ustadlarının bağrının başından qopan bu dərin poetik irsi gələcək nəsillərə çatdırmaq məqsədilə hazırlanıb.

# “Teknofest Azərbaycan” festivalı keçiriləcək

Azərbaycanda Türkiyənin ən böyük texnologiya festivalı olan “Teknofest” əsasında “Teknofest Azərbaycan” festivalı təşkil olunacaq.

Təhsil İnstitutundan bildirilib ki, 26-29 may tarixində reallaşacaq festival çərçivəsində müxtəlif kateqoriyalar üzrə gənclər arasında müsabiqələrin keçirilməsi planlaşdırılıb.

“Teknofest Azərbaycan” çərçivəsində “Baku Skills” kateqoriyası üzrə müsabiqə Təhsil Nazirliyi və Təhsil İnstitutunun dəstəyi ilə “STEAM Azərbaycan” layihəsi tərəfindən təşkil olunacaq.

“Baku Skills” müsabiqəsi iştirakçıların 3D çap texnologiyasında istifadə bacarıqlarının təkmilləşdirilməsini hədəfləyir. Yarışmada 3D modelləşdirmə və çap sahəsində marağı və biliyi olan bütün tələbələr iştirak edə bilərlər. “Baku Skills” (3D modelləşmə, 3D çap) kateqoriyası üzrə yarışmada iştirak hüququ qazanmış komandalar üçün lazımi avadanlıq və ləvazimat təchizatı Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək.

Müsabiqə ilə bağlı əlavə məlumatı institutun Təhsildə innovasiyalar şöbəsinin elektron poçt ünvanı (innovations@arti.edu.az) vasitəsilə öyrənmək mümkündür. Həmçinin steam.edu.az saytı vasitəsilə informasiya sessiyası keçiriləcək.

1, 2 və 3-cü yerlərin sahibi olacaq komandalar və onların rəhbərləri üçün pul mükafatları nəzərdə tutulub.

# Aktyor Natiq Fərzəliyev 60 yaşını “Sehrli tütək”lə qeyd edib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Bakı Uşaq və Gənclər Teatrının tanınmış aktyoru Natiq Fərzəliyevin 60 illik yubileyi münasibətilə “Sehrli tütək” tamaşası nümayiş olunub.



Tamaşa yanvarın 29-da paytaxtın Suraxanı rayonundakı Q.Abbasov adına Mədəniyyət Sarayında təqdim edilib.

Natiq Fərzəliyev 1962-ci il fevralın 1-də Yevlax rayonunda anadan olub. 1987-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsini bitirib. 1981-ci ildən Dövlət Gənclər Teatrında aktyor kimi çalışıb. 2009-cu ildən isə Dövlət Gənc Tamaşaçılar Teatrında işləyib. Teatr səhnəsi ilə yanaşı televiziya tamaşalarında da yaddaqalan rollar oynayıb.

# Mərkəzi İncəsənət Məktəbinin kitabxanasında elektron baza



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində yenidən bərpa edilmiş kitabxananın təqdimatı keçirilib.

Kitabxanaçı Ülviyyə Bayramova kitabxana fondunu ixtisaslar üzrə sistemləşdirib, elektron baza və kitabxananın kataloqunu yaradıb.

Məktəbin direktoru – Əməkdar artist, dosent Əziz Qarayusifli çıxış edərək zəngin fondu olan kitabxananın əhəmiyyətindən danışıb. Diqqətə çatdırılıb ki, kitabxananın yenidən təşkilində musiqişünas Nərgiz Kərimova, kitabxanaçılar Gülnar Tarverdiyeva və Sevda Məmmədovanın, kitabxananın rəsm əsərləri ilə tərtibatında məktəbin rəssamlıq ixtisası üzrə müəllimi Əli Ağadadaşovun xidmətləri olub.

Oxucular artıq yeni yaradılmış elektron baza və kataloq vasitəsilə kitabxana ilə yaxından tanış ola biləcəklər.

# Nizami yaradıcılığında multikultural və bəşəri dəyərlər

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yeni nəşri – “Nizami Gəncəvi yaradıcılığında multikultural və ümumbəşəri dəyərlər” adlı məqalələr toplusu işıq üzü görüb.

BBMM-in mətbuat xidmətindən bildirilib ki, kitab ölkə başçısının müvafiq sərəncamı ilə 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi ilə əlaqədar hazırlanıb.

Multikultural əhvalın, tolerant durumun klassik Azərbaycan ədəbiyyatında əsrlər boyu formalaşan və bədii nümunələrdə yaşayan təzahürü çoxşaxəlidir. Bu kontekstdə ilk olaraq böyük mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığı diqqəti cəlb edir. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi Nizaminin əsərləri multikultural mühit, çoxmədəniyyətlilik elementləri və dəyərləri ilə zəngindir.

Məqalələr toplusunda Nizami Gəncəvinin çoxçalarlı yaradıcılığı əsasən multikulturalizm və tolerantlıq prizmasından nəzərdən keçirilir. Qüdrətli söz ustadının xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus yerini qoruyub saxlamaqdadır.

Nəşrdə altı ölkədən (Azərbaycan, Gürcüstan, Özbəkistan, Ukrayna, Almaniya, Türkiyə) 20-yə yaxın müəllifin elmi və publisistik məqalələri toplanıb. Nəşrin elmi redaktoru və ön sözün müəllifi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilər Şurasının sədri, akademik Kamal Abdulla, layihə rəhbəri BBMM-in icraçı direktoru Rəvan Həsənovdur.

# Rəsulzadənin doğum günündə məzarı ziyarət edilib

Yanvarın 31-də Azərbaycan Xalq Cümhuriyyətinin banisi, ictimai-siyasi xadim, yazıçı-publisist Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) anadan olmasının 138-ci ildönümü tamam oldu.

Rəsulzadə Cümhuriyyətin süqutundan sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib, jurnal və qəzetlər nəşr etdirib. "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi", "Azərbaycan şairi Nizami" kimi dəyərli əsərlər yazıb. 1949-cu ildə onun rəhbərliyi ilə Türkiyədə Azərbaycan Kültür Dərnəyi təsis edilib. Rəsulzadə ömrünün sonunadək Azərbaycanın istiqlal davasını davam etdirib. 1955-ci ilin 6 martında vəfat edən Rəsulzadə Ankarada, Əsri məzarlığında dəfn olunub.

2014-cü ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illiyi dövlət səviyyəsində qeyd edilib. Həmçinin Azərbaycan dövlətinin dəstəyi ilə Rəsulzadənin məzarının ətrafı abadlaşdırılıb.

Məhəmməd Əmin Rəsulzadə anadan olmasının 138-ci ildönümündə məzarı başında anılıb.



Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və səfirliyin əməkdaşları Əsri məzarlığına gələrək Rəsulzadənin qəbrini ziyarət ediblər. Məzar önünə əklil qoyulub. 104 il öncə müsəlman Şərqində ilk respublikanın – Azərbaycan Cümhuriyyətinin qurulmasında tarixi xidmətləri olmuş dövlət xadiminin xatirəsi ehtiramla yad edilib.

**Mehparə Sultanova**
**Ankara**

# Murmanskda "Dostluq bayramı"

## Milli mədəniyyətlərin festivalında azərbaycanlı diasporu da iştirak edib

On ildən artıqdır ki, "Dostluq bayramı" festivalı adlı mədəniyyətlər bayramı Rusiya Federasiyasının Murmansk vilayətində yaşayan müxtəlif millətlərin nümayəndələrini bir yerə toplayır. Bu müddətdə festival sülh, xeyirxahlıq və dostluq bayramına çevrilib. Bu tədbir hər il "Mədəniyyətdən birliyə" devizi altında təşkil olunub.



Vilayətdəki "Azərbaycan Mədəniyyət Mərkəzi" İctimai Təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyi yerli bölməsinin mətbuat katibi, Rusiya Jurnalistlər İttifaqının üzvü Əlihüseyn Şükürov bildirib ki, builki bayram xüsusi əhəmiyyət kəsb edir – Rusiya Federasiyası Prezidentinin fərmanı ilə 2022-ci il "Rusiya Xalqlarının Mədəni İrs İli" elan edilib.

Tədbirdə çıxış edən Murmansk vilayətinin mədəniyyət naziri Olqa Obuxova bildirib ki, Zapolyarye diyarında tarixən müxtəlif xalqların nümayəndələri yanaşı yaşayıblar. Murmansk vilayətinin heyrətamiz mədəni müxtəlifliyini şimallıların gələcək nəsilləri üçün qoruyub saxlamaq məqsədilə "Dostluq bayramı" kimi xoş ənənəni davam etdirmək lazımdır.

"Azərbaycan Mədəniyyət Mərkəzi"nin sədri Afil Hüseynov çıxışında vurğulayıb ki, şimallılara xas olan qarşılıqlı hörmət və dostluq, mədəni müxtəliflik və mənəvi birlik Murmansk sakinlərinin qürur mənbəyi, onların ən böyük sərvətidir.

Festival çərçivəsində təşkil edilmiş sərgidə müxtəlif mədəniyyətlərə xas olan milli məişət əşyaları və dekorativ-tətbiqi yaradıcılıq məmulatları nümayiş etdirilib. Sonra konsert proqramı təqdim olunub. Proqrama müxtəlif xalqların mədəniyyətini əks etdirən rəqs, musiqi və ədəbiyyat nömrələri daxil edilib.

# "Netflix"də yeni türk filmi

"Netflix" yayım şirkəti türkiyəli rejissor Onur Bilgetayın "UFO" filminin treylerini nümayiş edib.



Romantik janrda olan filmdə (ssenari müəllifi Meryem Gültabak) baş rolları İpek Filiz Yazıcı və Mert Ramazan Demir canlandırırlar.

"UFO" çox fərqli həyat yaşayan iki gənc haqqındadır. Film həvəskar motosiklet yarışçısı olan və "UFO" adlandırdığı motosikleti ilə küçə yarışlarına qatılan gənc Ese (Mert Ramazan Demir) ilə zəngin, təhsilli bir ailənin qızı Dəniz (İpek Filiz Yazıcı) arasındakı münasibətlərdən bəhs edir. Fərqli dünyanın adamları olan gənclər özlərini heyranedici bir sevginin içində tapırlar.

## 19 İLDƏN SONRA

# Kevin Kostner ekranlara qayıdır

Məşhur amerikalı aktyor Kevin Kostner "Horizon" adlı vesterni (Amerikanın həyatını əks etdirən janr) ekranlaşdırmağa hazırlaşır.



Aktyor 19 ildən sonra ekranlara yenidən rejissor kimi dönəcək, eyni zamanda filmdə əsas obrazlardan birini canlandıracaq.

Çəkilişlərin avqust ayında başlanması nəzərdə tutulsa da, kastinqlər artıq fevral ayından etibarən start götürəcək.

Qeyd edək ki, K.Kostner son olaraq 2003-cü ildə "Açıq məkan" filmində rol alıb. Onun "Canavarlarla rəqs" filmi "Ən yaxşı film" nominasiyası da daxil olmaqla 7 "Oskar" qazanıb. Film Amerika Kino Akademiyasının "Qızıl şedevrlər" siyahısına salınıb.

# "Belə bir oğlan yaşayır"dı...

## Leonid Kuravlyov vəfat edib

Rusiyanın Xalq artisti, bir sıra filmlərdən Azərbaycan tamaşaçısına da yaxşı tanış olan Leonid Kuravlyov yanvarın 30-da, 86 yaşında vəfat edib. Aktyor bir müddət əvvəl ağciyər sətəlcəmi diaqnozu ilə xəstəxanaya yerləşdirilmişdi.

Leonid Vyaçeslavoviç Kuravlyov 8 oktyabr 1936-cı ildə Moskvada fəhlə ailəsində anadan olub. Uşaqlığı asan keçməyib. Atası çilingər, anası isə qadın bərbəri işləyirdi. O, beş yaşında olanda Böyük Vətən müharibəsi başlayır və anası saxta ittihamla Şimala sürgün olunur. Balaca Leonid də anası ilə birlikdə sürgünə gedir. Maraqlıdır ki, sovet kinosunun ulduzuna çevrilən sənətçi Şimalda keçirdiyi uşaqlıq həyatını "xoşbəxt illər" kimi xatırlayırdı...

1955-ci ildə Leonid Kuravlyov Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (VQİK) Aktyor sənəti fakültəsinə (Boris Bibikovun kursu) daxil olur. 1960-cı ildə M.Şveytsarın tarixi-inqilabı ekran əsəri olan "Miçman Panin" filmində matros rolunu oynayır. Kinoda ilk böyük uğuru 1964-cü ildə Vasili Şukşinin "Belə bir oğlan yaşayır" filmində oynadığı baş rol ilə qazanır.

2015-ci ilədək kinoda çəkilən Leonid Kuravlyov yaradıcılığı dövründə 200-dək rol ifa edib. Aktyorun ən sevilən və yaddaqalan personajlarından biri rejissor Georgi Daneliyanın "Afonya" filmindəki çilingər Afanasi Borşov obrazıdır. Ekranlara 1975-ci ildə çıxan film həmin il sovet prokatının lideri (62 milyon baxış) olmuşdu. Bu rol aktyora ümumxalq sevgisi və geniş şöhrət gətirir. Kuravlyov, həmçinin "İvan Vasilyeviç peşəsini dəyişir", "Görüş yerini dəyişmək olmaz", "Həyat üçün təhlükəlidir" və digər filmlərdəki rolları ilə tanınır.



**Lalə**

# 1 milyon funtluq "oyuncaq tövlə"



Britaniyalı rəssam Benksinin "oyuncaq tövlə"si 1 milyon funt-sterlinqə (1,34 milyon dollar) satılıb. Bu barədə İngiltərədəki "Anderson və Qarland" hərrac evi məlumat yayıb.

Məlumatda bildirilir ki, "oyuncaq tövlə" maketi "Meriveylin kənd modeli" miniatür parkının sahibləri tərəfindən hərraca çıxarılıb. Onlar ötən il avqustun 6-da parkın miniatür tikililəri arasında eni və hündürlüyü 44 santimetr olan "tövlə" maketi tapıblar. Maketin üstündə sprey boya ilə "Ya hər şey, ya da heç nə" (Go Big or Go Home) sözləri yazılıb.

Bir neçə gün sonra küçə incəsənətinin kralı Benksi (Banksy) "İnstagram" vasitəsilə İngiltərənin şərqindəki Saffolk və Norfolk qraflıqlarının kurort şəhərlərində peyda olan qrafiti və art-obyektlərin müəllifi olduğunu təsdiqləyib. Benksinin sözlərinə görə, "The Great British Aerosol Vacation" seriyasına daxil olan "oyuncaq tövlə" onun doqquz əsərindən biridir.

Bundan sonra miniatür parkının sahibləri onu surəti ilə əvəz edib, əslini isə maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə hərrac evində satışa çıxarıblar. BBC miniatür parkı sahiblərinin sözlərini sitat gətirib: "Benksi bizim xilaskarımız oldu, çünki biz pandemiya səbəbindən uzun müddət idi ki, fəaliyyətimizi dayandırmışdıq. Ümid edirik ki, bu satış kəndimizin gələcəyini təmin edəcək...".

"Lota maraq o qədər yüksək idi ki, biz onu bir neçə yüz min funt-sterlinq məbləğində qiymətləndirdik, ancaq sonda 1 milyon funt-sterlinqə satıldı. Bu, küçə incəsənəti əsəri üçün ödənilən çox yaxşı məbləğdir", – deyə "Anderson və Qarland" hərrac evinin nümayəndəsi Yan Baiyat-Smit bildirib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 192 il əvvəl...

**3 fevral 1830-cu ildə** Rusiya, Britaniya və Fransanın iştirakı ilə "London protokolu" imzalanıb. Beynəlxalq razılaşmaya əsasən, Osmanlı İmperatorluğunun tərkibində olan Yunanıstana konstitusiyalı monarxiya yaratmaq imkanı tanınıb.

### 174 il əvvəl...

**2 fevral 1848-ci ildə** ABŞ-la Meksika arasındakı müharibə (1846-1848) birincinin qələbəsi ilə yekunlaşıb. Sülh sazişinə əsasən, Texas, Nyu-Meksika və Yuxarı Kaliforniya üç yeni ştat olaraq ABŞ-a birləşdirilib.

### 161 il əvvəl...

**4 fevral 1861-ci ildə** ABŞ-ın 7 cənub ştatının rəhbərləri Alabamada bir araya gələrək Şimaldan ayrıldıqlarını və Amerika Federativ Ştatları adlı dövlətin qurulduğunu elan ediblər. Bir qədər sonra Şimal-Cənub müharibəsi başlandı. Dörd il sürən müharibə şimal ştatlarının qələbəsi ilə yekunlaşdı.

### 98 il əvvəl...



**3 fevral (bəzi mənbələrdə 8 fevral) 1924-cü ildə** Bakıda ilk tramvay nəqliyyatı işə salınıb. Azərbaycanda polad relslər üzərində ilk nəqliyyat 1883-cü ildə işə salınan Bakı-Tiflis dəmiryolu olmuşdu. 1899-cu ildə Bakıda ilk konka işləməyə başlamışdı. 1923-cü ildə elektrik tramvay xəttinin çəkilişi başlanır və 1924-cü il fevralın əvvəlində istismara verilir. 2002-ci ildə Bakıda tramvay nəqliyyatı ləğv olundu.

### 77 il əvvəl...

**4 fevral 1945-ci ildə** Krım (Yalta) konfransı işə başlayıb. İosif Stalin (SSRİ), Franklin Ruzvelt (ABŞ) və Uinston Çörçill (Britaniya) II Dünya müharibəsinin gələcək yekunlarını müzakirə ediblər. Stalin Almaniyanın kapitulyasiyasından sonra ölkənin 4 zonaya (4-cü Fransanın zonası oldu) bölünməsinə, SSRİ-nin Yaponiyaya qarşı müharibəyə başlamasına və Koreyanın 38-ci paralel üzrə bölünməsinə razılıq verib. Razılaşmaya əsasən, Şimali Koreya SSRİ-nin, Cənubi Koreya isə ABŞ-ın nəzarətinə keçməli idi.

### 74 il əvvəl...

**4 fevral 1948-ci ildə** Britaniyanın müstəmləkəsi olan Seylon adası müstəqilliyini elan edib. 1972-ci ildən Şri-Lanka Respublikası adlanır.

### 68 il əvvəl...



**4 fevral 1954-cü ildə** Azərbaycanda ən iri su elektrik stansiyası – Kür çayı üzərində Mingəçevir SES istifadəyə verilib. İnşası 1945-ci ildə başlanan Mingəçevir SES Cənubi Qafqazda ən iri su elektrik stansiyasıdır. Stansiyanın işə salınması ilə respublikanın yeni sənaye mərkəzinin – energetiklər şəhəri Mingəçevirin təməli qoyulub.

### 64 il əvvəl...

**3 fevral 1958-ci ildə** Haaqa (Niderland Krallığı) şəhərində bir araya gələn Belçika, Niderland və Lüksemburq gələcək Avropa Birliyinin özəyi olan "Benilüks" iqtisadi ittifaqının əsasını qoyublar. Müqavilə 50 il müddətinə bağlanmışdı.

### 37 il əvvəl...

**4 fevral 1985-ci ildə** BMT-nin işgəncələrin qadağan olunması haqqında konvensiyası qüvvəyə minib. 4 fevral dünyada "İşgəncələr əleyhinə gün" kimi qeyd olunur.

### 33 il əvvəl...

**2 fevral 1989-cu ildə** SSRİ hərbi kontingenti Əfqanıstandan çıxarılıb. Doqquzillik müharibə SSRİ-yə ağır itki və beynəlxalq biabırçılıqdan savayı heç nə vermədi. Rəsmi statistikaya görə, Əfqanıstan müharibəsində 20 min sovet hərbçisi həlak olmuşdu.

### 26 il əvvəl...

**2 fevral 1996-cı ildə** Azərbaycan gənclərinin ilk ümumrespublika forumu keçirilib. Forumda Prezident Heydər Əliyev iştirak edib. Prezident Heydər Əliyevin imzaladığı fərmanla 1997-ci ildən etibarən 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd edilir.

### 18 il əvvəl...

**3 fevral 2004-cü ildə** Prezident İlham Əliyevin iştirakı ilə "Gülüstan" sarayında Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyəsi üzrə son sənədlərin imzalanma mərasimi keçirilib. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin, BTC-nin kreditorlar qrupunun nümayəndələri tərəfindən imzalanan paket 78 müxtəlif tərəfin 17 mindən artıq imzası olan 208 maliyyə sənədindən ibarət idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 366
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641